# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 90 (3414) Cümə axşamı / 16-22 dekabr 2021-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## Hərbi formadan sui-istifadə edənlər utanmalıdır



**Sevinc Alızadə,**
"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

***"44 günlük Vətən müharibəsindən keçən bir il yaralarımızı sağalda bildimi?" - sualı gündəmin əsas müzakirə mövzusu olaraq aktuallığını qoruyur. Belə hesab edilir ki, müharibənin insanlara, torpağa, təbiətə vurduğu ziyan həllini tapmayana qədər aktual olaraq qalacaq. Müharibədə qazanılan zəfərimizə özünün canı, qanı, sağlamlığı ilə qoşulan insanlar daim diqqətdə saxlanılır və mövcud problemlərin üstünə gedilir. Əlil və qazilərimizdən, onlara göstərilən qayğı və problemlərdən söz açacağıq. Həmsöhbətimiz "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadədir:***

Şəhid qapısını şəkil çəkdirmək xatirinə açmaq lazım deyil

Səh. 6

MÜSAHİB



**Teymur Qasımlı,**
Beynəlxalq münasibətlər üzrə analitik

■ Əsas odur ki, həmin görüşlərdə əldə olunan razılaşmaları Rusiya və Ermənistan tərəfləri yerinə yetirsinlər...

■ Hazırkı geosiyasət onu diqtə edir ki, Türkiyə-Ermənistan münasibətlərində yaxınlaşma olsun...

■ Azərbaycan dövləti var gücüylə Laçın dəhlizi və Qarabağdakı bütün prosesləri izləməli, yeri gələndə müdaxilə etməlidir.

Səh. 3

# Dəhliz müzakirəsində nida işarəsi

***Müstəqilliyin ilk günlərindən indiyədək davam edən, 28 ildir Vətən torpaqlarımızı işğalda saxlayan Ermənistan üzərində şanlı qələbəmizdən bir ildən artıq keçir. Cəmi 44 gün sürən və tarixdə Vətən müharibəsi adı ilə qalan milli mücadiləmiz 3 minədək övladımızı əlimizdən alsa da, dövlətin ərazi bütövlüyünü təmin etdi. Sonradan məhz məğlub Ermənistanın mövqeyi üzündən bəzi problemlər ortaya çıxıb. Azərbaycan öz tərkib hissəsi olan Qarabağla Ermənistan arasında Laçın dəhlizinin işlək vəziyyətdə qalmasına razı oldusa da, Ermənistan hökuməti üzərinə götürdüyü öhdəliyə əməl etmədi və Zəngəzur dəhlizinin yaradılması prosesi indiyədək həllini tapmır. Azərbaycan Prezidenti İlham Əliyev Brüssel görüşlərinin yekunlarına dair keçirdiyi mətbuat konfransında bildirdi ki, Laçın dəhlizi bu gün hansı statusdadırsa, Zəngəzur dəhlizinə də eyni status verilməlidir:***




"Biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvana gedən dəmir yolu xəttinin tikilməsi ilə bağlı razılığa gəlmişik. Həmçinin, avtomobil yolunun inşası ilə bağlı razılıq da əldə etmişik. Lakin avtomobil yolunun istiqaməti hələ dəqiqləşməyib. Bu, gələcək müzakirələrin predmetidir. Biz bu axşam üçtərəfli görüşdə mütləq bu məsələni müzakirə edəcəyik. Zəngəzur dəhlizindən istifadə qaydalarına gəlincə, bu, Laçın dəhlizindəki kimi olmalıdır. Çünki üçtərəfli bəyanatda açıq şəkildə göstərilib ki, Laçın dəhlizi vasitəsilə Azərbaycan Ermənistan və Qarabağ arasında əlaqə üçün təhlükəsiz və maneəsiz giriş təmin edir. Ermənistan da Azərbaycan və Naxçıvan arasında maneəsiz girişi və təhlükəsizliyi təmin etməlidir.

Bu gün Laçın dəhlizində gömrük postu yoxdur. Zəngəzur dəhlizində də gömrük postu olmamalıdır. Əgər Ermənistan yükləri və insanları yoxlamaq üçün gömrük postunun qurulmasında israr edərsə, biz də Laçın dəhlizində eyni israrı edəcəyik. Bu məntiqlidir. Bu məsələdə qərar Ermənistanın üzərinə düşür. Biz iki varianta da hazırıq. Ya hər iki tərəfdə gömrük postu olmur, ya da hər iki tərəfdə gömrük postu qurulur". Təbii ki, dövlət başçısının bu mövqeyi adildir, ədalətlidir. Bəs mətbuat konfransını kənardan izləyən ekspertlər bu məsələylə bağlı nə düşünürlər? Bununla bağlı Pakistan, Türkiyə, İsrail və Rusiyadan olan siyasət biliciləri ilə söhbətləşdik.

**■ Pakistanın ölkəmizdəki keçmiş səfiri Xalid Usman Qayser:**

- Düşünürəm, Zəngəzur dəhlizi məsələsi ilə bağlı Azərbaycanın maraqlarına uyğun qərar yalnız Prezident İlham Əliyev tərəfindən verilə bilər. Mənim arzum Zəngəzur yolunun açıldığını, insanların Bakıdan Naxçıvana öz maşınları ilə getdiyini görməkdir. Arzum budur ki, hər bir Azərbaycan vətəndaşı paytaxt Bakıdan və ölkənin digər şəhərlərindən Naxçıvana şəxsi avtomobilləri ilə rahat gedə bilsinlər. Bu mənada, Bakını Naxçıvanla birləşdirəcək avtomobil yolunun tikintisi şəxsən mənim üçün mükəmməl iqtisadi inkişaf layihəsi olacaq. Azərbaycan Ermənistana qarşı son müharibədə qalib gəlib. Beləliklə, Azərbaycan öz tələblərini ölkə rəhbərliyinin lazım bildiyi kimi, irəli sürmək üçün güclü mövqedədir.

Praktiki olaraq yalnız onu deyə bilərəm ki, xarici siyasətdə qərarlar milli maraqlar rəhbər tutularaq, soyuqqanlı rasionallıqla qəbul edilir. Azərbaycan üçün nəyin xeyirli olduğunu heç bir kənar şəxs təklif edə bilməz. Azərbaycan xalqı və liderləri çox yaxşı bilirlər ki, müzakirə olunan məsələdə Ermənistanın hansı qərar qəbul etməsindən asılı olmayaraq, onların ölkəsinin xeyrinə nə var.

**■ İsraildən olan ictimai xadim, "Yerusəlimin əli" təşkilatının sədri Baruç Leviev:**

- Fikrimi bilmək istəyirsinizsə, Azərbaycan Prezidenti İlham Əliyevlə həmfikirəm. Ona görə yox ki, Azərbaycanın haqlı mövqeyini müdafiə edirəm, burada hər şey məntiqlidir. Ermənistan başqa siyasi oyunçuların əlində oyuncaqdır. Beləliklə, İrəvanın necə davranması onun tərəfindən düşünülən təxribatdır və yaxşı sonluğa səbəb olmayacaq. Ermənistanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi üçün mərhələli təzyiqlərdən də istifadə oluna bilər. Ermənistan bu gün olduqca çətin vəziyyətdədir. Hesab edirəm, bu mövqeyində israr etməklə çox uzağa getməsi mümkün deyil.

**■ Türkiyə İnsan Haqları Avrasiya Forumunun rəhbəri Abdullah Buksur:**

- Ermənistan illərlə Azərbaycanın bir parçası olan Qarabağ torpaqlarını hüquqsuz şəkildə işğalda saxladı, bu reallıqdır və cavab verməlidir. Ermənistan 28 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamaqla böyük hərbi cinayətlər törədib - Xocalıda soyqırımı törədib, etnik təmizləmə aparıb və bütün bunların hesabını verməlidir. Xüsusilə də bütün bu cinayətlərindən dolayısı, Azərbaycana hərbi təzminat ödəməlidir. Buna imkanı yoxdursa, o zaman Azərbaycan tərəfi Naxçıvan dəhlizini tələb edə bilər.

**■ Rusiyalı siyasət uzmanı Konstantin Tasits:**

- Nəqliyyat kommunikasiyalarının açılması məsələsi Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin rəhbərliyi ilə Üçtərəfli İşçi Qrupunda müzakirə olunur və hələlik bütün nüanslar razılaşdırılmayıb. Ermənistanın cənub sərhədi boyunca SSRİ dövründə olduğu kimi eyni marşrutla keçəcək dəmir yolunun tikintisi haqqında saziş var. Magistral yolun açılması ilə bağlı razılığa gəlmək mümkün olub, lakin konkret marşrut hələ müəyyən edilməyib. Məlumata görə, bu müstəvidə bir neçə variant var. Ermənistan və Azərbaycan öz milli qanunvericiliklərinə və MDB çərçivəsində bağlanmış sazişlərə əsaslanmaq, həmçinin qarşılıqlılıq prinsipini rəhbər tutmaq barədə razılığa gəliblər. Eyni zamanda, Bakının nöqteyi-nəzərindən Azərbaycanı Naxçıvanla birləşdirən nəqliyyat kommunikasiyaları Laçın dəhlizi ilə eyni rejimdə işləməlidir. İrəvanda hesab edirlər ki, həmin yollar həm də azərbaycan ərazisindən keçməklə, Ermənistanı Rusiya və İranla birləşdirəcək nəqliyyat kommunikasiyaları kimi fəaliyyət göstərməlidir. Hazırda atəşkəs kövrək olmaqda davam edir. Yerlərdə eskalasiya hallarının və atəşlərin baş verdiyini görürük. Ona görə də regionda sabitliyi poza biləcək birtərəfli hərəkətlərdən çəkinmək, bütün tərəflərə uyğun gələn razılaşdırılmış güzəştli qərarlar qəbul etmək lazımdır.

***✍ Vüsal Tağıbəyli***

"

*Azərbaycan öz tələblərini ölkə rəhbərliyinin lazım bildiyi kimi, irəli sürmək üçün güclü mövqedədir...*

*İrəvanın necə davranması onun tərəfindən düşünülən təxribatdır və yaxşı sonluğa səbəb olmayacaq...*

*Bütün bu cinayətlərindən dolayısı, Azərbaycana hərbi təzminat ödəməlidir...*

*Ermənistanın cənub sərhədi boyunca SSRİ dövründə olduğu kimi eyni marşrutla keçəcək dəmir yolunun tikintisi haqqında saziş var...*

GÜNÜN FOTOSU...



**Xudafərin - Qubadlı - Laçın avtomobil yolundan son görüntü...**

GÜNÜN SİTATI

*"Noyabrın 16-da sərhəddə toqquşmanı biz planlaşdırsaydıq, dayanmazdıq"*



**İlham Əliyev,**
Azərbaycan Prezidenti

KARİKATURA




**Bayram günləri və sıxlıq təhlükəsi...**

## "Media haqqında" yeni qanun daha əhatəli və genişdir

**Vüqar Ziferoğlu,**
BDU-nun Jurnalistika fakültəsinin dekanı

Yeni qanun müasir mediada istifadə olunan məqamlarla bağlı anlayışların şərhini təqdim edir.

Səh. 5

STATİSTİKA




**■ Beynəlxalq Valyuta Fondunun (BVF) son proqnozlarına görə, Azərbaycan əhalisinin sayı 2024-cü ilin sonuna 10,56 mln. nəfərə çatacaq.**

2022-ci ilin sonuna əhali sayının 10,31 mln., 2023-cü ildə isə 10,43 mln. nəfər təşkil edəcəyi proqnozlaşdırılır.

Uzunmüddətli proqnozlara gəldikdə, 2027-ci ilədək Azərbaycan əhalisinin 10,81 mln. nəfərə çatacağı proqnozlaşdırılır. Cari ilin oktyabrın 1-nə ölkə əhalisinin sayı ilin əvvəlindən 0,3% artaraq 10,15 mln. təşkil edib.




Səh. 7

## "Suraxanı" gəmisi - dünyada ilk tanker-muzey

PREZİDENTİN İŞ GÜNÜ

## Prezident ukraynalı və moldovalı həmkarları ilə görüşdü



**Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.**

Prezident İlham Əliyev dedi:

- Hörmətli cənab Prezident, Sizi yenidən görməyimə çox şadam. Sizin Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram. İkitərəfli münasibətlərimizin inkişafı üçün o səfərin çox böyük əhəmiyyəti var idi. Şadam ki, səfərdən sonra bütün verdiyimiz təlimatlar yerinə yetirilir və Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Əlbəttə, çox maraqlıyıq ki, bu əlaqələri daha da genişləndirək. Əlbəttə ki, şəxsi təmaslar bu məqsədlərə nail olmaq üçün xüsusi şərait yaradır. Əminəm ki, bugünkü görüşümüz də çox məhsuldar və uğurlu olacaq. Bu gün biz Sizinlə birlikdə Şərq Tərəfdaşlığı Zirvə görüşündə iştirak edəcəyik. Bu gün işimiz çoxdur.

Prezident Volodimir Zelenski dedi:

- Doğrudur, işimiz çoxdur. Zati-aliləri cənab Prezident, Sammit çərçivəsində ayrıca bir görüşün keçirilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. Ölkənizin siyasətində bizə davamlı olaraq dəstək olduğunuza, ərazi bütövlüyümüzü və suverenliyimizi dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm. İki il bundan əvvəl Azərbaycandakı görüşümüzlə bağlı çox yaxşı xatirələrim var. Azərbaycan çox qonaqpərvər ölkədir. Fürsətdən istifadə edərək Sizi Ukraynaya səfərə dəvət edirəm. Ümid edirdim ki, Siz bizim müstəqilliyimizin 30-cu ildönümündə ölkəmizə səfər edəcəkdiniz, lakin COVID-ə görə bu günlərdə dünyada vəziyyətin çətin olduğunu da başa düşürəm. Lakin müstəqilliyin 30-cu ildönümü bütün il ərzində qeyd olunur - avqust ayından növbəti ilin avqust ayınadək. Buna görə ümid edirəm ki, Siz imkan tapıb Ukraynaya gələcəksiniz və biz Sizin səfərinizi səbirsizliklə gözləyəcəyik.

Söhbət zamanı, həmçinin hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, biznes dairələrinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, xüsusilə enerji sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.

***

**Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti xanım Maya Sandu ilə görüşü olub.**

Prezident Maya Sandu dövlətimizin başçısını salamladı: Salam, cənab Prezident.

Prezident İlham Əliyev: Salam, Sizinlə tanışlığıma şadam.

Prezident Maya Sandu: Sizinlə də şəxsən tanışlığıma şadam.

Prezident İlham Əliyev: Sizi görmək çox xoşdur.

Prezident Maya Sandu: Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bu, bizim birinci görüşümüzdür. Mən Sizi seçkilərdə qələbə münasibətilə bir daha təbrik etmək və Sizə uğurlar arzulamaq istəyirəm.

Prezident Maya Sandu: Çox sağ olun.

Prezident İlham Əliyev: Ümid edirəm ki, ölkələrimiz arasında münasibətlər müsbət məcrada inkişaf etməyə davam edəcək. Bu baxımdan şəxsi təmaslar çox vacib rol oynayır.

Prezident Maya Sandu: Elədir ki, var. Çox sağ olun, cənab Prezident. Sizə qaz böhranı keçirdiyimiz müddətdə bizə dəstək olduğunuza görə minnətdarlığımı bildirmək istəyirəm. Biz potensial həlləri araşdıra bilərdik. Sonda biz qısamüddətli həll yolunu tapdıq. Lakin biz enerji sektorunda əməkdaşlığımızı müzakirə etmək istəyirik. Əlbəttə ki, biz biznes baxımından əməkdaşlığımızın dərinləşdirilməsi, ticarət mübadiləsi sahəsində əməkdaşlıq üçün imkanları araşdırmaqda həmişə maraqlıyıq. Biz Moldovada biznes mühitinin yaxşılaşdırılmasında çox maraqlıyıq. Biz insanlarımız üçün daha çox iş yerləri yaratmaq istəyirik. Biz xaric investorların cəlb edilməsində və istənilən digər ölkələr kimi yeni bazarların tədqiqində maraqlıyıq. Beləliklə, mən təmasların yaradılması və biznes forumlarını təşkil etməklə biznesmenlərimizə bir-biri ilə ünsiyyət yaratmağa kömək imkanını görürəm ki, hər iki ölkənin vətəndaşlarına kömək edə bilək.

Prezident İlham Əliyev: Bəli, mən Sizinlə razıyam. Hesab edirəm ki, biz hökumətlərarası birgə komissiyanın fəaliyyətini də gücləndirməliyik. Komissiyanın yeni toplantısı keçirilməlidir. Çünki komissiyanın üzvləri demək olar on ildir ki, bir araya gəlmirlər. Bəzi məlumatlara baxdım və gördüm ki, qarşılıqlı ticarətin səviyyəsi çox kiçikdir. Hesab edirəm bunun artırılması üçün potensial var. Lakin bunun üçün Sizin dediyiniz kimi biznes dairələri bir araya gəlməlidir. Komissiyanın toplantısı olsa onlar, həmçinin potensial investisiya imkanları, biznes mühiti haqqında təqdimatlar edə bilərlər ki, biz də qarşılıqlı ticarətin səviyyəsini artıra bilək. Hesab edirəm ki, biz bir-birimizə təklif edə biləcəyimiz çoxlu malları müəyyən edə bilərik. Enerji əməkdaşlığı məsələsində bilirsiniz ki, biz Avropa təsisatları ilə fəal işləyirik, Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq və yeni bazarlara çıxış bizim üçün böyük əhəmiyyət kəsb edir. Buna görə düşünürəm ki, bu məsələ ilə bağlı ümumi zəmini tapacağıq.

Görüşdə, həmçinin Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü daim dəstəklədiyi qeyd olundu. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, yaxın vaxtlarda hökumətlərarası komissiyanın növbəti iclasının keçirilməsi, iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması, enerji, investisiya sahələrində, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əməkdaşlıq məsələləri müzakirə edildi.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Brüssel görüşü - növbəti diplomatik qələbə

Gündəm

***Dekabrın 15-də Brüsseldə Avropa İttifaqının «Şərq tərəfdaşlığı» sammiti çərçivəsində Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. Rusiyanın vasitəçiliyi ilə keçirilən Soçi görüşündən sonra Aİ-nin vasitəçilik missiyasını üzərinə götürdüyü Brüssel danışıqlarına maraq xeyli böyük idi. Hafta.az hər iki görüş və onların nəticələrini politoloqlarla müzakirə edib.***

Öncə Aİ Şurasının Prezidenti Şarl Mişelin görüşlə bağlı fikirlərinə diqqət yetirək. Ş. Mişel qeyd edib ki, Cənubi Qafqaz regionunda vəziyyətlə bağlı səmimi və açıq dialoq baş tutub:

"Avropa İttifaqı bu regionda daha çox sabitlik və rifah üçün müsbət rol oynamaq istəyinə sadiqdir. Biz ehtiyac duyulan humanitar jestləri dəstəkləmək, hər iki tərəf arasında etimad yaradacaq səyləri gücləndirmək istəyirik. Həmçinin, digər aktorlarla birlikdə bütün müsbət səyləri dəstəkləməyə hazırıq. Bildiyiniz kimi, biz hər zaman Minsk Qrupunu və daha artıq təhlükəsizliyə, sabitliyə nail olmaq üçün bütün səyləri dəstəkləmişik. Biz göstərmişik ki, hətta mürəkkəb mövzularda belə birbaşa alətlər səmərəlidir və buna ehtiyac var. Təbii ki, ən çətin məsələlərlə bağlı belə vacib olan birinci şey bir-birimizə qulaq asmaq, harada olduğumuzu başa düşmək, yanaşmalarımız və görüşlərimiz arasında hansı fərqlərin olduğunu görmək, bəzən də müxtəlif arqumentləri açıqlamaqdır. Mən qəti şəkildə inanıram ki, bu görüş həddindən artıq faydalı idi, inanıram ki, qısa və orta müddətli olaraq bu cür birbaşa təmaslar saxlanacaq. Bir daha vurğulamaq istəyirəm ki, Aİ digər tərəfdaşlarla birlikdə öz üzərinə düşən işi görməyə hazırdır. Çünki bizim regionda daha çox sülh sabitlik və rifah üçün aydın görüşümüz, aydın hədəflərimiz var".

Aİ Şurasının Prezidenti hər iki ölkənin lideri ilə davamlı şəkildə əlaqə saxladığını bildirib: "Telefon əlaqələri ilə yanaşı, Bakıya və İrəvana səfər etmişəm, liderlərlə birbaşa görüşlərim olub. Mən anlayıram və görürəm ki, əlaqələnmə və kommunikasiya prioritetdir. Əlbəttə ki, etimadın səviyyəsi barədə də əmin olmaq vacibdir. Bu görüşdə dəmiryolu xətlərinin çəkilməsi barədə razılıq əldə olundu, çünki kommunikasiya xətlərinin yenidən açılması üçün nəyə ehtiyac olduğu barədə tərəflərin yanaşması aydın idi və bu məsələ ilə bağlı ortaq anlaşma vardı.

Biz birlikdə sualları müəyyənləşdirdik ki, yaxın və orta müddətdə birgə şəkildə nəyin üzərində işləyə bilərik, vacib olan nədir? Sirr deyil ki, bəzi məqamlarla, suallarla bağlı çətinliklər mövcuddur, lakin məndə bir əminlik var. Çünki burada qarşılıqlı anlaşma mövcuddur. Bu o demək deyil ki, biz hər şey barədə razılığa gəlmişik, lakin bu o mənanı ifadə edir ki, bir-birini daha yaxşı başa düşmək istiqamətində səylərin göstərilməsi ilə bağlı ortada ortaq siyasi istək var. Əməkdaşlığı gücləndirmək üçün nə etmək lazım olması barədə suala cavab tapmaqla bağlı siyasi istək mövcuddur".

Ş. Mişelin sözlərinə görə, hər zaman birbaşa danışmaq vacibdir: "İnanıram ki, belə şəxsi görüşlərin əlavə dəyəri böyükdür. Əminəm ki, bu görüşümüzdən sonra gələcəkdə başqa birbaşa görüşlər üçün imkan açılır. Xatırlatmaq istəyirəm ki, bir müddət öncə səylərimiz nəticəsində mümkün insidentlərin qarşısını almaq, gərginlikdən uzaq olmaq və hər hansı çətinliklər meydana çıxarsa, onların idarə olunması üçün iki ölkənin müdafiə nazirləri arasında birbaşa əlaqə yarandı. Düşünürəm ki, regionda sabitliyi və təhlükəsizliyi maksimallaşdırmaq üçün liderlər arasında bu cür təmaslar vacibdir". Aİ Şurasının Prezidenti görüş zamanı Azərbaycan və Ermənistan liderlərini bir müddət yalqız buraxdığını da deyib: "Düşündüm ki, mən bu istiqamətdə dəstək verməli, kömək etməliyəm, çünki birbaşa danışıqlar naminə bu onlar üçün də vacibdir".



*"Avropa Birliyinin vasitəçiliyi ilə Brüsseldə Azərbaycan və Ermənistan dövlət rəhbərləri arasında danışıqların nəticələrini uğurlu saymaq olar. Bu görüş və əldə olunan nəticələr müəyyən qədər Soçi görüşünün davamıdır. Eyni zamanda, Soçidə əldə olunmuş razılaşmaların daha konkret şəkildə möhkəmləndirilməsi və Ermənistan üçün konkret məsuliyyətin qoyulması baxımından təqdirəlayiqdir".*

**■ Bunu hafta.az-a siyasi şərhçi Aydın Quliyev Brüssel görüşünün əhəmiyyətini təhlil edərkən bildirib.**



**Aydın Quliyev,**
siyasi şərhçi

*"Azərbaycanın "Dəhliz diplomatiyası" Brüsseldə qalib gəldi*

**A.Quliyev görüşdə, xüsusilə itkin düşmüş şəxslərin taleyinin aydınlaşması ilə bağlı tərəflər arasında müzakirəyə çağırışın edilməsini olduqca əhəmiyyətli hesab edib.**

"Bu, Ermənistanın illərboyu açmaq istəmədiyi bir mətləbin üzərinə gedilməsi deməkdir. 90-cı illərin ortalarından Azərbaycanın 4 minə qədər insanının taleyinin necə olduğu bəlli deyil. Bunlar Ermənistana müxtəlif şəraitlərdə əsir düşmüş, Ermənistanın silahlı dəstələri tərəfindən naməlum istiqamətlərə aparılmış Azərbaycan vətəndaşlarıdır. Aydın məsələdir ki, onların taleyinin aydınlaşdırılması bizim üçün çox prinsipialdır. Bu, Azərbayacan dövlətinin özünün vətəndaşının taleyinə biganə qalmamasının nümayişidir".

A.Quliyev eyni zamanda bildirib ki, Brüsseldə Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi və sülh sazişinin bağlanmasına edilən çağırış olduqca prinsipial və əhəmiyyətlidir.

"Cənab Mişel açıq şəkildə dedi ki, münaqişənin aradan qaldırılması və sülh sazişinin imzalanması üçün addımların atılması vacibdir. Bu, əslində "Dağlıq Qarabağ" münaqişəsi deyilən problemin başa çatması, tarixə qovuşması barədə Azərbaycanın konseptual mövqeyinin Avropa Birliyi tərəfindən dəstəklənməsidir. Azərbaycan hesab edir ki, münaqişə başa çatıb və bu proses məntiqi olaraq sülh sazişinin bağlanması ilə nəticələnməlidir ki, Brüsseldə elə məsələlər müzakirə olunub, razılaşmalar əldə edilib ki, bu məsələlərlə bağlı Ermənistan zaman-zaman pozucu mövqe tuturdu, onların həll olunub axıra çatdırımasında maraqlı deyildi. Bunlar Zəngəzur dəhlizinun açılması, sərhədlərin delimitasiya və demarkasiyası, mina ərazilərin təmizlənməsi, humanitar problemlərin həll edilməsi və s. məsələlərlə bağlı idi. Avropa Burliyi Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu ortaya qoydu və sərhədlərin delimitasiyası ilə əlaqədar hər iki tərəfə işçi qrupunun yaradılmasını tövsiyə etdi. Soçi razılaşmasında da delimitasiya ilə bağlı ikitərəfli komissiyanın yaradılması nəzərdə tutulurdu. Brüssel sammiti bu ideyanı daha da konkretləşdirdi".

A.Quliyev hesab edir ki, Brüsseldə əldə olunmuş nəticələr müharibədən sonra bölgədə olan gərginliyi aradan qaldırmaq, gələcəkdə sülhə yönəlik perspektiv açmaq baxımından əhəmiyyətlidir. Azərbaycanın "Dəhliz diplomatiyası" Brüsseldə qalib gəldi. Ölkəmizin postmüharibə konsepsiyası Brüsseldə bir daha təsdiqləndi.

*Dekabrın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə birgə görüşü keçirilib. Erməni diasporunun bu görüşə uzun müddətdir hazırlaşdığı, Azərbaycan Prezidentinə təzyiq imkanı yaratmaq üçün "zəmin" formalaşdırdığı bəlli idi. Brüssel görüşü hansı nəticələrlə diqqət çəkir?*

**■ Politoloq Turan Rzayev hafta.-az-a şərhində bildirir ki, görüş zamanı Prezidentə ənənəvi olaraq, "demokratiya" "insan haqları" bəhanəsi ilə müəyyən təziqlərin ediləcəyi, bu yolla Zəngəzur dəhlizi və regional məsələlərin ikinci plana salınacağı düşünülürdü. Lakin ermənilərin gözlədiyi baş tutmadı.**

Politoloq bildirir ki, Ermənistanın Zəngəzur dəhlizini açmaq istəmədiyi hər kəsə bəllidir.

"Son hadisələr və Ermənistan Baş naziri Nikol Paşinyanın çıxışları da bunu sübut edir. Bu da bir reallıqdır ki, Azərbaycan bu məsələdə geri addım atmaq niyyətində deyil. Bu mənada deyə bilərəm ki, Prezidentin Zəngəzur dəhlizinin açılması istiqamətində Laçın dəhlizi üzərindən Emənistana təzyiq etməsi məntiqli və düzgün addımdır.

Prinsip etibarilə Laçında ermənilər üçün dəhlizin yaradılıb, Zəngəzurda Azərbaycana, sadəcə, bəsit bir yolun verilməsi heç də ədalətli və konstruktiv addım deyil. Ermənistan tərəfi hər vəchlə 10 noyabr bəyanatında Zəngəzur dəhlizi ifadəsinin olmadığını qeyd etsə də, faktiki olaraq müqavilədə maneəsiz hərəkət sözü var.

Bu isə özlüyündə dəhliz ifadəsindən çox daha ciddi bir faktdır. Rəsmi İrəvan bununla da razılaşmaq istəmir. Bu mənada, Prezidentin Aİ Şurası Prezidenti Şarl Mişellə görüşdən öncə NATO Baş katibi ilə mətbuat konfransında ən sərt şəkildə Zəngəzur məsələsini qaldırması və ilk dəfə olaraq Laçın dəhlizi ilə müqayisə etməsi rəsmi Bakının bu məsələdə nə dərəcədə qərarlı olduğunu göstərir.

Politoloq Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ilə keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair bəyanata diqqət çəkib.

"Hesab edirəm, bəyanat rəsmi Bakının maraqlarına uyğundur. Misal üçün, Aİ Şurasının Prezidenti Ermənistan və Azərbaycan arasındakı münaqişə irsinin aradan qaldırılmasına çağırış edib. Bu o deməkdir ki, Azərbaycanın dediyi kimi, münaqişə artıq keçmişdə qalıb və gələcəyə baxmaq lazımdır. Digər tərəfdən, bəyanatda Cənubi Qafqazda sülhün təmin edilməsi üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilir. Prinsip etibarilə bu, Aİ tərəfindən Azərbaycanın təklif etdiyi sülh müqaviləsinə dəstək kimi qəbul edilə bilər. Rəsmi Bakı da indiki halda yekun sülh müqaviləsinin imzalanmasını təklif edir və bu mövqeyi sabitdir. Şarl Mişelin bəyanatındakı ən mühüm məqam isə şübhəsiz, onun 2020-ci il 10 noyabr, 2021-ci ilin 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklərin yerinə yetirilməsini çağırış etməsidir. Məsələ ondadır ki, bu çağırış Azərbaycanın mövqeyi ilə üst-üstə düşür. 2020-ci il 10 noyabr, 2021-ci ilin 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklərin hamısı rəsmi Bakı üçün məqbuldur. Azərbaycan bu gün də qeyd olunan görüş və bəyanatların icrasını tələb edir. Misal üçün, 10 Noyabr bəyanatında öz əksinə tapan maneəsiz hərəkət məsələsi və nəqliyyat kommunikasiya əlaqələrinin bərpa edilməsi hələ də icra olunmayıb.

Bəyanatdakı daha bir mühüm məqam odur ki, ilk dəfə olaraq Aİ-nin gündəliyinə itkin düşmüş şəxslər mövzusu salınıb və onların taleyinə aydınlıq gətirilməsinin zəruriliyi qeyd olunub. Bu, olduqca vacibdir, çünki Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan tərəfindən itkin düşmüş 4 mindən artıq şəxsin taleyi hələ də məlum deyil. Bəyanatda həm də dəmiryol xəttinin çəkilişi xüsusi olaraq qeyd olunub. Hesab edirəm, burada konkret olmasa da, Zəngəzur dəhlizi boyunca dəmir yolunun çəkilişi nəzərdə tutulur. Belə ki, indiki halda çəkiləcək dəmir yolu xətti keçmiş xəttin yenilənməsi hesabına reallaşacaq. Keçmiş dəmir yolu xətti isə məhz Zəngəzur ərazisindən keçirdi. Daha fərqli bir yerdən dəmir yolu çəkmək ən azından coğrafi olaraq çətin olacaq. Ermənistanın yalnız Arazboyu cənub sərhədləri düzən ərazidir və SSRİ dövründə iki ölkəni birləşdirən dəmir yolu da məhz buradan keçirdi. Hesab edirəm, bütün bunlar Aİ tərəfindən təşkil olunmuş görüşdə Azərbaycanın haqlı mövqeyinin təsbit olunduğunu göstərir".



**Turan Rzayev,**
politoloq

*Brüsseldə ermənilərin gözlədiyi baş tutmadı*

Poitoloq bəyanatda bir dəfə də olsun, ATƏT MQ-nin adının çəkilməməsi məqamına diqqət çəkib.

"Hesab edirəm bu, gözlənilən idi. ATƏT MQ-in 27 illik fəaliyyətsizliyi artıq hərkəs tərəfindən bilinir. 27 il ərzində qurumun bacarmadığını faktiki olaraq Azərbaycan 44 günlük müharibədə bacardı. Mahiyyət etibarilə İkinci Qarabağ müharibəsinin başlamasına bir səbəb də məhz qurumun fəaliyyətsizliyi və qərəzli mövqeyi idi.

İndiki mərhələdə ATƏT MQ-in olub-olmamasının heç bir fərqi yoxdur. Bəyanatda bir dəfə də olsun, ATƏT MQ-in adının çəkilməməsi isə onu göstərir ki, Brüssel nəzdində qurum artıq öz etibarını itirib. Əks-təqdirdə, Aİ tərəfindən sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində məşvərətçi statusunda dəstək ifadə olunmaz, ATƏT MQ-ə həvalə edilərdi".

✍ *Tahirə Qafarılı*

# Türkiyə-Ermənistan dialoqu

## Aktual

**_Ermənistan və Türkiyə münasibətlərində yeni bir dönəm başlayır. Hər iki dövlət rəsmiləri dialoq üçün öz nümayəndələrini təyin edəcəyini açıqlayıb. Politoloq Əli Mustafa hafta.az-a bildirib ki, Türkiyə- Ermənistan münasibətlərində dialoq mühitinin yaranması uzun müddətdir ki, özünü doğrultmur. Burada əsas səbəb Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi idi. Politoloq qeyd edir ki, Azərbaycan torpaqlarının əhəmiyyətli bir hissəsi işğaldan azad olunduğu üçün Türkiyə Ermənistanla münasibətlərdə yeni bir dialoqa başlayıb._**

“

*Belə bir dialoq mühitinin yaradılması həm də Rusiyanın regiona müdaxiləsini azalda bilər...*

*Ermənistan Türkiyə qarşısında hansısa şərt qoymaq iqtidarında deyil...*

*Prezident İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində həmin dialoqa son qoyulmuşdu...*

*Bizim üçün Türkiyədən asılı olan Ermənistan, Rusiyadan asılı olan Ermənistandan daha sərfəlidir...*



Prosesdə söz sahibi Azərbaycandır



“Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində müəyyən addımlar atılır. Ortada Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçməsi, sərhədlərin müəyyənləşməsi və ümumiyyətlə, sülh sazişinin bağlanması ilə bağlı müəyyən səylər var. Bu münasibətlər o qədər də sabit, davamlı deyil. Bu daha çox Ermənistandakı vəziyyətlə əlaqəlidir. Daim müxalifətin və cəmiyyətin təpkiləri Paşinyanın ardıcıl olmasına maneə olur. Onlar da fərqindədirlər ki, Azərbaycanla münasibətlər mütləq mənada yoluna düşməlidir”.

Politoloq hesab edir ki, belə bir dialoq mühitinin yaradılması həm də Rusiyanın regiona müdaxiləsini azalda bilər.

Onun fikrincə, Gürcüstan və Azərbaycanla əməkdaşlıq edən Türkiyənin Ermənistanla da müəyyən şərtlər daxilində əməkdaşlıq səyləri doğru addımdır.

“Ermənistan Azərbaycan və Türkiyə ilə böyük sərhədi olan bir dövlətdir”.

■ **Politoloq Turan Rzayev bildirir ki, rəsmi Bakının indiki halda Ermənistandan tələbi İrəvanın Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməsi, Azərbaycanla sülh müqaviləsi imzalamasıdır.**

“Bu məsələdə rəsmi Bakı ilə Ankaranın mövqeyi əvvəldən eynidir. Ermənistan XİN-in mətbuat katibi Vaan Unanyan Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun Ermənistana xüsusi nümayəndə təyinatı ilə bağlı açıqlamasında qeyd edib ki, “Ermənistan hər zaman olduğu kimi, ilkin şərt olmadan Türkiyə ilə münasibətlərin normallaşdırılması prosesinə hazırdır”. Yəni Unanyan deyir ki, Ermənistan da Türkiyə ilə dialoqa başlamaq üçün xüsusi nümayəndə təyin edəcək, lakin Ankara İrəvana heç bir şərt irəli sürməsin.

Ermənistan bu tələbində çox israr edə bilməyəcək. Məsələ ondadır ki, Ermənistan Türkiyə qarşısında hansısa şərt qoymaq iqtidarında deyil. Nəzərə almaq lazımdır ki, Türkiyə ilə sərhədlərin açılması Ermənistan üçün həyati bir məsələdir. Bu mənada deyə bilərik ki, rəsmi İrəvan gec-tez Ankara və Bakının ortaq tələbləri ilə razılaşmaq məcburiyyətində qalacaq”.

“Biz perspektivdə Rusiya, Türkiyə və Ermənistan arasında faktiki olaraq yeni layihələrin şahidi ola bilərik. Təbii ki, gələcəkdə Ermənistanın Türkiyə ilə münasibətlərinin yaxşılaşması Cənubi Qafqazda siyasi proseslərə təsirsiz ötüşməyəcək. Bu, eyni zamanda Ermənistanda Rusiyanın, porodaksal səslənsə də, Qərbin özünün də mövqeyini zəiflədəcək. Türkiyənin Azərbaycanla mövqeyini gücləndirəcək. Hər halda biz bilirik ki, Ermənistan daima Rusiya və Qərbin maşası rolunda çıxış edib. Ona görə də elə edilməlidir ki, bu dövlət öz sahiblərindən uzaqaşıb iqtisadi və digər sahələrdə Türkiyədən asılı vəziyyətə düşsün”.

■ **Bunu hafta.az-a politoloq Zaur Məmmədov Türkiyə və Ermənistan xarici işlər nazirləri səviyyəsində qarşılıqlı dialoqun normallaşdırılması istiqamətində atılan addımlar və bunun bölgədəki proseslərə hansı təsirlər verəcəyi ilə bağlı vəziyyəti şərh edərkən bildirib.**

Politoloq hesab edir ki, Türkiyə - Ermənistan münasibətərinin normallaşdırılması və sərhədlərin açılması istiqamətində Davosdan başlanan gizli diplomatiya ilə bu gün Türkiyə-Ermənistan arasında başlanan dialoqla bağl yeni dönəmim başlanması arasında böyük fərq var.

“Həmin dövrdə Qərb Türkiyə və Ermənistanı gizli şəkildə bir araya gətirmişdi. Bu dəfə Azərbaycan məsələlərdən agahdır və məhz rəsmi Bakının 44 günlük müharibədəki qalibiyyətindən sonra Azərbaycan və Türkiyənin başçılığı altında Ermənistana yeni təkliflər verildi. Bu təkliflərdən biri də Türkiyə-Ermənistan arasında sərhədlərin açılması və yeni münasibətlərin əsasının qoyulmasıdır”. Z.Məmmədov bildirib ki, son bir neçə ildə Türkiyə dəfələrlə ən yüksək səviyyədə bəyan edib ki, Ermənistanın regionda Azərbaycanla apardığı siyasət Türkiyə - Ermənistan münasibətlərində əsas rol oynayacaq. Onun fikrincə, əgər söhbət yeni dönəmdən gedirsə bu yalnız Ermənistanın Qarabağ mövzusunda özünü rasional aparmasından sonra baş verə bilər.

“Hələlik ilkin variantda birgə komissiyaların yaradılmasından və xüsusi elçilərin təyin edilməsindən söhbət gedir. Təbii ki, bundan sonra baş verənlər Ermənistanın Azərbaycanla delimitasiya, demarkasiya, Zəngəzur dəhlizinin açılması və digər məsələlərdə göstərdiyi davranışdan asılı olacaq”.

Politoloq hesab edir ki, Ermənistanın 44 günlük müharibədən sonra Paşinyanın məqsədlərinə çatmaq üçün ən optimal yolu məhz Ankara ilə yeni münasibətlərin əsasının qoyulmasıdır. Politoloq burada bir neçə əsas məqamın olduğunu qeyd edib.

“Əvvəl Qərb bu münasibətlərin normallaşmasında maraqlı idisə, bu gün münasibətlərin normallaşmasında Qərbdən də çox Türkiyə və Rusiya maraqlı tərəf qismində iştirak edirlər. Rusiya anladı ki, əgər özü qabağa düşməzsə, o zaman münasibətlərin normallaşmasında Qərb qabağa düşə bilər.

Z.Məmmədov 2008-ci il təcrübəsində Azərbaycanın maraqlarının nəzərə alınmadığını qeyd edib. O, bildirib ki, Prezident İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində həmin dialoqa son qoyulmuşdu və dialoq yarımçıq başa çatmışdı.

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu şəxsi tvitter hesabında Ermənistan məsələsi ilə məşğul olacaq xüsusi nümayəndə təyin edəcəyini bildirib. “Ermənistan son yaşananlardan dərs alıb sülhü, sabitliyi seçərsə, sərhədlər də açıla bilər”, - deyib.

Türkiyə-Ermənistan arasında yenidən vüsət alan bu proseslər necə inkişaf edə bilər?

■ **Bu barədə vəziyyəti hafta.az-a şərh edən politoloq Yeganə Hacıyeva bildirib ki, Türkiyənin xarici işlər naziri Çavuşoğlu Ermənistanla sərhədlərin açılması ilə bağlı bir sıra mesajlar səsləndirməklə yanaşı, hələlik, iki ölkə arası uçuşların bərpasının nəzərdə tutulduğunu, həmçinin sərhədlərin açılması ilə məşğul olacaq nümayəndələrin müəyyənləşəcəyi fikirlərini səsləndirib.** Politoloq qeyd edib ki, Türkiyə- Ermənistan sərhəddi Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi səbəbi ilə bağlanıb. Bu, Ermənistanın iqtisadi inkişafının qarşısını almaqa yanaşı, prosesin Azərbaycanın xeyrinə işləməsinə təkan verdi. Bu həm də Türkiyənin Azərbaycanla qardaşlığının nümayişi idi.

Onun sözlərinə görə, artıq Ermənistan-Türkiyə sərhədlərini bağlı saxlamağa əsaslandıran səbəblər aradan qalxıb.

“Türkiyə bu mövzu ilə bağlı uzun illər təzyiqlərlə üzləşib. Uzun zaman bir sıra ölkələr, beynəlxalq təşkilatlar Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal faktorunu səsləndirmədən Türkiyənin Ermənistan sərhəddini bağlamasına görə qınayıb, bunu bu ölkəyə qarşı iqtisadi təcavüz kimi qiymətləndirib. 44 günlük müharibənin bitməsi ilə məqamlar dəyişib. Biz torpaqlarımızı işğaldan azad etmişik və hazırda üçtərəfli razılaşmanın bəndləri yerinə yetirilir”.

Poitoloq hesab edir ki, əgər indiki şəraitdə Azərbaycanla Ermənistan sərhədi Gorus-Qafan istiqamətində açıqdırsa, eyni açılımın Türkiyə -Ermənistan sərhədlərində olmasına normal yanaşılmalıdır.

Onun fikrincə, Türkiyənin Ermənistanla sərhədlərinin açılmasını məyusluqla qarşılayan müəyyən kəsim var ki, bu istiqamətdə mümkün olan digər maraqlı məqamlara diqqət yetirməlidir.

“Sərhədlərin açılması Ermənistanı Türkiyədən asılı vəziyyətə düşürəcək. Türkiyənin geniş və ucuz bazarı Ermənistanı ələ alacaq. Bizim üçün Türkiyədən asılı olan Ermənistan, Rusiyadan asılı olan Ermənistandan daha sərfəlidir”.

Politoloq qeyd edir ki, sərhədlərin açılması ilə bağlı ortaya atılan 2008-ci il nümunəsi məhz ABŞ Dövlət Departamentinin rəhbəri Hillari Klinton və Avropanın 5 ölkəsinin patronajlığı altında gedən proseslər idi. İndi nə Türkiyə 2008-ci ildəki Türkiyədir ki, belə bir patronajlığı qəbul etsin, nə də ABŞ-la Türkiyənin münasibətləri o səviyyədə deyil ki, Türkiyə müttəfiqlik namimə özünün olmayan təşəbbüslərə razıaşmış olsun”.

✍ *Tahirə*

## Müsahib

**_Beynəlxalq münasibətlər üzrə analitik Teymur Qasımlı hafta.az-a növbəti müsahibəsində əsasən Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyanın Brüssel görüşünün nəticələri barədə danışıb._**

# Türkiyə ilə strateji müttəfiqlik dərinləşməlidir...



**Teymur Qasımlı,**
Beynəlxalq münasibətlər üzrə analitik

***- Teymur bəy, Brüssel görüşünün nəticələrini necə dəyərləndirirsiz?***

- Öncə onu deyim ki, 10 noyabr bəyanatından sonra olan görüşlər arasında Soçi və Brüssel görüşləri xüsusi olaraq seçildi. Hər iki görüş öncəsi cəbhə xəttində gərginlik oldu. Soçi görüşündə müəyyən razılıqlar əldə olunduğu bildirildi. Bundan başqa, zənnimcə, Brüsseldə gözlənilməyən bir məqam da Azərbaycan dövlət başçısı ilə NATO-nun baş katibinin görüşməsi oldu. Bu görüşü yerində olan bir görüş kimi qəbul edir və alqışlayıram. Məhz bu görüşdən sonrakı mətbuat konfransında Azərbaycan Prezidenti bildirdi ki, Zəngəzur dəhlizi boyu çəkilməsi nəzərdə tutulan yolla bağlı ilkin razılaşma olub. İlham Əliyev qeyd etdi ki, Paşinyanla görüşdə bu məsələnin müzakirəsi olacaq. Brüssel görüşündə Soçi görüşündə əldə olunan bəzi məsələləri hər iki tərəfin qəbul etdiyi və razılıq olduğu görsənir. Ümumilikdə Soçi və Brüssel görüşlərini səmərəli kimi qəbul etmək olar. Əsas odur ki, həmin görüşlərdə əldə olunan razılaşmaları Rusiya və Ermənistan tərəfləri yerinə yetirsinlər. Bundan sonrakı prosesləri yaxından izləmək lazımdır...

***- Belə çıxmırmı ki, Brüssel görüşü Soçi görüşündən daha məhsuldar oldu? Yəqin ki, Brüssel görüşündən sonra Putində qısqanclıq yaranıb və o, bu görüş əsasında, yəni Avropa İttifaqının patronajlığı altında delimitasiya və Zəngəzurdan dəmir yolunun çəkilməsi ilə bağlı hansısa real nəticələrin əldə olunmasına mane olmağa çalışacaq?***

- Birincisi, bu görüşün Soçi görüşündən məhsuldar olması haqqında fikir bildirmək hələ tezdir. Soçi görüşündən sonra baş nazir müavinlərinin görüşü oldu. Ancaq həmin görüş gərgin keçdi və sonda yarımçıq dayandı və qərara alınıb baş nazirlərin müavinlərin ikinci görüşü olacaq. Sonra hər iki ölkənin xarici işlər nazirinin görüşü olacaqdı. Lakin həmin görüş də baş tutmadı. Çünki sərhəddə gərginlik vardı və erməni deputatlar qanunsuz olaraq Qarabağa gəlmişdi. Soçi görüşündə Zəngəzur dəhlizi ilə bağlı razılığa gəlinmişdi, lakin dəmir yolunun haradan keçəcəyi məsələsi qalmışdı, həmin məsələ də bu görüşdə əldə olundu.

Burada bir yenilik var: İlham Əliyev tərəfindən Zəngəzur dəhlizində hərəkət rejiminin faktiki olaraq Laçın dəhlizi ilə eyni olması müddəası da səsləndi... Düşünürəm ki, bu da Rusiya ilə razılaşdırılıb. Qaldı Putinin mövqeyinə, düşünürəm ki, buradakı məsələlər məhz Kremlin nəzarəti altında baş verir. Rusiyanın maraqları qorunmadığı müddətdə Rusiya hər şeyə əl atır və atmaqda davam edəcək. Odur ki, əgər Soçi görüşündən əldə olunan razılaşmalardan başqa Brüssel görüşündə başqa razılaşmalar olubsa və Rusiyanın bundan xəbəri yoxdursa və ya onun maraqlarına cavab vermirsə, Putin proseslərə mane ola bilər...

***- Sizcə, keçmiş Dağlıq Qarabağdakı digər ərazilərimizə Azərbaycan bayrağı sancılmamış, yəni o yerlərdə yurisdiksiyamız əldə olunmamış Türkiyə dövləti Ermənistanla diplomatik əlaqələrin bərpa olunmasına və sərhədlərin açılmasına razı olacaqmı?***

- Hazırkı geosiyasət onu diqtə edir ki, Türkiyə-Ermənistan münasibətlərində yaxınlaşma olsun. Türkiyə-Ermənistan arasında pərdəarxası danışıqlar gedir. Azərbaycan dövləti bu danışıqların aparılmasına isti baxıb və hələki səbirlə izləyir. Əsas odur ki, həmin münasibətlər Azərbaycana qarşı olmasın. Təbii ki, bu yaxınlaşma Azərbaycan və Türkiyənin maraqlarına cavab verməlidir. Türkiyə tərəfi yeni şərtlər irəli sürüb Ermənistan tərəfinə. Ermənistan tərəfi bu yaxınlaşmanı istəyir... Amma İrəvanın burada öz oyunları var.

Türkiyənin Orta Asiyaya rahat çıxması üçün Zəngəzur dəhlizi ona lazımdır... Digər tərəfdən, Qərb Türkiyə ilə Ermənistan arasında münasibətlərin qurulmasını həm istəyir, həm də hər iki tərəfə təzyiq etməyə çalışır...

Amma reallıq odur ki, bu münasibətlərin qurulması Ermənistana iqtisadi gəlirlər gətirə bilər. Ancaq bu münasibətlərdə siyasi uğurların olacağına mən hələ ki, şübhə edirəm. Prosesləri yaxından izləmək lazımdır. Qaldı Xocalıya və Xankəndinə Azərbaycan bayrağı sancılması, bu yalnız Azərbaycan dövlətinin atdığı uğurlu diplomatik gedişlərdən asılı olacaq. Mən buna inanıram, Xocalıya və Xankəndində Azərbaycan bayrağı dalğalanacaq...

***- Biz deyirik ki, Qarabağdakı ermənilərə status verilməsi məsələsi bitdi, əvəzində Laçın dəhlizi deyilən ərazi və Rusiya hərbçilərinin məsuliyyət zonası olan, ermənilərin yaşadığı digər Azərbaycan torpaqları faktiki olaraq Ermənistanın nəzarətindədir. Və belə görünür ki, Rusiya ordusu oradan çıxınca belə də olacaq. Azərbaycanın bu dalandan çıxması üçün rəsmi Bakı hansı addımları atmalıdır?***

- Rusiya hazırda öz oyununu oynayır və öz şərtlərini irəli sürür. Azərbaycan dövləti bu şərtlərin qarşısında oz oyunlarını oynayır, Rusiyanın istəklərini yerinə yetirmir və dirəniş göstərir. Ancaq Brüssel görüşündən gəlinən nəticələr göstərir ki, Azərbaycan dövləti

“

*Əsas odur ki, həmin görüşlərdə əldə olunan razılaşmaları Rusiya və Ermənistan tərəfləri yerinə yetirsinlər*

Laçın dəhlizində post quracaq və ona nəzarət edəcək. Ancaq dəhliz hələki Rusiyanın tam nəzarəti altındadır. Azərbaycan dövləti var gücüylə Laçın dəhlizi və Qarabağdakı bütün prosesləri izləməli, yeri gələndə müdaxilə etməlidir. Azərbaycanın bu dalandan çıxması üçün:

***1. Milli birliyin qorunub saxlanması mütləq lazımdı.***

***2. Əsas daxili və xarici problemlər həll olunmalıdır.***

***3. Diplomatiyamız güclənməli və yeniliklər olmalıdır.***

***4. Türkiyə ilə strateji müttəfiqlik dərinləşməlidir.***

***5. Qərb v NATO ilə münasibətləri genişləndirmək lazımdır.***

***6. Beynəlxalq arenada güclü müttəfiqlər tapıb münasibətlər qurmaq vacibdir.***

***7. Diplomatiyamız ancaq hucum mövqeyində olmalıdır.***

Və 8-ci, bütün deyilənlərin həll olunacağı halda hər zaman Qarabağda qanunsuz erməni silahlı birləşmələrinə qarşı antiteror əməlliyyyatlar keçirməyə hazır olmalıyıq.

✍ ***Sultan Laçın***

# Regionların iqtisadi inkişafı büdcənin "yük"ünü azaldır

## Layihə



***2004-cü ildən başlayaraq Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində mühüm addımlar atılır. Regionların inkişafı ilə bağlı ilk Dövlət Proqramının icrasına məhz 2004-cü ildən başlanılıb. İndiyədək regionların sosial-iqtisadi inkişafına dair 2004-2008, 2008-2014 və 2014-2018-ci illər üzrə dövlət proqramları ihəyacra edilib. Hazırda icrası davam edən 2019-2023-cü illər üzrə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı isə sayca dördüncüdür. Qeyd edək ki, bu gün regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası göstərir ki, bölgələrdə ənənəvi sahələrin inkişafı ilə bağlı tapşırıqlara uyğun olaraq, zəruri işlər görülür.***

Dövlətin regionların inkişafı istiqamətində həyata keçirdiyi layihələr bölgələrin simasını tamamilə dəyişərək gözəlləşdirir. İlkin hesablamalara görə, təkcə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

Təbii ki, regionların inkişafı ölkə iqtisadiyyatının dayanıqlığının artırılması, əhalinin sosial təminatının yaxşılaşdırılması, işsizliyin minimuma endirilməsi, makroiqtisadi sabitliyin təmin olunması baxımından önəmli və vacib amildir. Bəhs olunan dövlət proqramlarının uğurla icra edilməsi bütün ölkədə müsbət reallıqlar yaradıb. Hazırda Azərbaycan infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri sırasındadır. Bu isə bölgələrdə həm iqtisadi fəallığın artması, həm də insanların həyat şəraitinin yaxşılaşması üçün əsas şərtlərdən biridir.

Son illərdə bölgələrdə dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində çoxsaylı istehsal müəssisələri, sənaye məhəllələri fəaliyyətə başlayıb. Eyni zamanda, regionlarda iri fermer təsərrüfatlarının, aqroparkların yaradılması geniş vüsət alıb. Bütün bunlar bir tərəfdən rayon və şəhərlərin gəlir imkanlarını artırır, digər tərəfdən isə vətəndaş məmnunluğunu yüksəldir. Eyni zamanda, Prezident İlham Əliyevin aldığı mühüm qərarlar əsasında aparılan islahatlar da rayon və şəhərlərin gəlir imkanlarının artmasına müsbət təsir göstərir. Bu sırada respublikamızda "kölgə iqtisadiyyatı"na qarşı ciddi mübarizə aparılması, institusional və sərt cəza tədbirlərinin köməyi ilə korrupsiya, rüşvətxorluğun əhatə dairəsinin əhəmiyyətli dərəcədə kiçildilməsinin önəmini xüsusi qeyd etmək lazımdır.

Korrupsiya və rüşvətxorluqla aparılan mübarizə, vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına yol verənlərin ən sərt şəkildə cəzalandırılması, bütün sahələrdə şəffaflığın təmin olunmasının ciddi formada nəzarətdə saxlanılması vəsaitlərin düzgün istiqamətə xərclənməsinə, israfçılıq hallarının aradan qaldırılmasına imkan yaradıb. Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəd isə ölkənin uzunmüddətli dayanıqlı inkişaf hədəflərinin müəyyənləşdirilməsi və islahatların konkret proqramlar əsasında reallaşdırılması üçün yeni imkanlar yaradıb. Ölkədə aparılan sistem xarakterli islahatlar, insan amilinin sosial-iqtisadi islahatların əsas prioritetinə çevrilməsi, ən əsası, 2020-ci ildə ərazilərimizin Ermənistanın işğalından azad edilməsi sosial-iqtisadi və innovativ inkişaf sahələrində yeni vəzifələr müəyyənləşdirilməsinə zəmin yaradıb.

> *"Gələn il 52 rayon və şəhər özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək*

Sosial rifah səviyyəsinin davamlı artımı məqsədilə yüksək, dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətləndirilməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini perspektiv üçün qarşıda duran ən vacib vəzifələrdəndir. Bu baxımdan da şaxələndirmə və qeyri-neft sektorunun inkişafı tədbirlərinin davam etdirilməsi, yerli və xarici sərmayələrin təşviqi, şəffaf özəlləşmə strategiyasının həyata keçirilməsi, kapital və sığorta bazarının inkişafı və digər mühüm məsələlər ön plandadır.

Ümumilikdə, prioritetlərə əsasən, 2030-ci ilə qədər iqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmasə proqnozlaşdırılır. Bunun üçün yüksək gəlirli iş yerlərinin yaradılması, həyat səviyyəsinin ilbəil yaxşılaşdırılması, iqtisadiyyatın dərin şaxələndirilməsi nəzərdə tutulub. Plana əsasən, 10 il ərzində sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndiriləcək. Ölkəmizdə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunacaq. Məşğulluq imkanları daha da genişlənəcək.



**Vüqar Bayramov,**
millət vəkili

Məlumdur ki, ötən illərə qədər həm də rayonların böyük əksəriyyəti dövlət büdcəsindən ayrılan dotasiya hesabına xərclərini ödəyirdi və qarşıya qoyulan əsas vəzifələrdən biri şəhər və rayonların dövlət büdcəsindən maliyyələşməsinin azaldılması, tədricən dayandırılması idi. Regional inkişaf proqramlarının icrasının və bütövlükdə ölkə iqtisadiyyatının inkişafının nəticəsi olaraq ötən illərdə bu istiqamətdə mühüm irəliləyişlər baş verib. Ötən illərdə büdcədən dotasiya alan rayonların sayının xeyli azalması göstərir ki, bütün bölgələrin özünümaliyyələşdirmə prinsipləri əsasında yaşaması mümkündür. Bunun üçün sadəcə hər bir şəhər və rayon özünün potensial imkanlarından düzgün yararlanmalıdır. Son illərdə bəzi rayonların təcrübəsində bunun nə qədər real olduğunu görmək olar. Demək olar ki, vaxtilə ölkə Prezidentinin irəli sürdüyü uğurlu təşəbbüslərin öz bəhrəsini verir. Azərbaycanın qeyri-neft sektorundakı inkişafını şərtəndirən mühüm sənaye kompleksləri, fabrik və zavodların işə düşməsi ölkəmizə böyük dividendlər qazandırır. Aparılan işlər regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, əhalinin rifahının yüksəlməsinə şərait yaradır.

Azərbaycanda mərkəzi büdcədən vəsait almadan xərclərini yerli gəlirlər hesabına ödəyə bilən şəhər və rayonların sayı 2017-ci ildən etibarən əhəmiyyətli dərəcədə artgr <http://www.anl.az/down/meqale/azerbaycan/2016/dekabr/517014.htm>. Belə ki, 2016-cı ildə büdcədən dotasiya almayan rayonların sayı 7 olduğu halda 2017-ci ildə onların sayı 34-ə yüksəlib. 2021-ci ilin büdcə sənədində 42 şəhər və rayonun öz xərclərini ödəyə biləcəyi qeyd olunmuşdu. 2022-ci ildə isə ümumilikdə 52 rayon və şəhər özünü maliyyələşdirəcək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

### Ekspert rəyi...

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Vüqar Bayramov deyib ki, 2022-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsinə əsasən, gələn il cəmi 14 rayona vəsait ayrılacaq. 52 rayon və şəhər isə növbəti ildə dövlət büdcəsindən vəsait almayacaq və özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək.**

"Layihəyə əsasən, Ağdam (dövlət büdcəsindən 4 milyon 980 min manat ayrılacaq), Balakən (1 milyon 612 min manat), Cəbrayıl (2 milyon 874 min manat), Goranboy (2 milyon 156 min manat), Xocalı (1 milyon 527 min manat), Xocavənd (1 milyon 540 min manat), Kəlbəcər (3 milyon 528 min manat), Qax (5 mi?yon 476 min manat), Laçın (2 milyon 416 min manat), Lerik (2 milyon 434 min manat), Oğuz (2 milyon 484 min manat), Yardımlı (2 milyon 103 min manat), Zəngilan (1 milyon 409 min manat) və Zərdab (2 milyon 917 min manat) vəsait alacaq. Dövlət büdcəsindən rayonlara gələn il cəmi 37 milyon 456 min manat vəsait ayrılacaq". Onun sözlərinə görə, özünü maliyyələşdirəcək rayonların sayının çox olması müsbət haldır:

"Bu, dövlət büdcəsindən asılılığın aradan qaldırılmasına imkan yaradır. Hazırda əsas hədəflərdən biri də iqtisadiyyatın balanslı inkişafının dəstəklənməsi və region ilə paytaxt arasındakı iqtisadi fərqin mərhələli şəkildə azaldılmasıdır. Bu baxımdan, yaxın gələcəkdə özünü maliyyələşdirən rayonların daha çox dəyər yaratması olduqca vacibdir. Bir məqamı da vurğulayım ki, 2022-ci ildə büdcədən vəsait alacaq 14 rayonun tən yarısı Qarabağ və Şərqi Zəngəzurda yerləşir. Qalanları isə respublikanın digər bölgələrindədir".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Qumar oyunlarının və belə oyunların təşkilatçısının (operatorunun) və satıcısının reklamına görə fiziki şəxslər 5 min manat, vəzifəli şəxslər 10 min manat, hüquqi şəxslər 50 min manat məbləğində cərimə ediləcək. Bu, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

■ Pep Qvardiola Premyer Liqada ilk dəfə "Lids" üzərində qələbəyə sevinib. İspaniyalının rəhbərlik etdiyi "Mançester Siti" rəqibini 7:0 hesabı ilə darmadağın edib. Qvardiolanın komandası ötən mövsüm bu rəqibi məğlub edə bilməmişdi - 1:1, 1:2. "Lids" onun qalib gəldiyi 28-ci rəqib olub.

■ Bu ilin noyabr ayında Azərbaycanda "Facebook" sosial şəbəkə istifadəçilərinin sayı oktyabr ayı ilə müqayisədə 3% artıb. Dekabrın 1-i tarixinə ölkə üzrə 5 230 100 nəfər aktiv "Facebook" istifadəçisi qeydə alınıb ki, bu da ölkə əhalisinin 50,9%-ni təşkil edir. Ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə "Facebook" istifadəçilərinin sayı 40,5% və ya 1 509 100 nəfər artıb. İstifadəçilərin 64,7%-i kişilər, 35,3%-i isə qadınlardır.



■ Bu ilin noyabr ayında Azərbaycanda "Instagram" sosial şəbəkə istifadəçilərinin sayı oktyabr ayı ilə müqayisədə 1,3% artıb. Dekabrın 1-i tarixinə ölkə üzrə 4 037 400 nəfər aktiv "Instagram" istifadəçisi qeydə alınıb ki, bu da ölkə əhalisinin 39,7%-ni təşkil edir. Ötən ilin eyni dövrünün göstəricisi ilə müqayisədə isə istifadəçi sayı 21% və ya 708 400 nəfər artıb.

■ "KİV nümayəndələri jurnalist gödəkcələrindən istifadə etməlidir". Bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev deyib. O bildirib ki, üzərində "press" yazılmış gödəkcələr jurnalistlərin təhlükəsizliyi və aksiya iştirakçılarından seçilməsi baxımından önəmlidir: "Jurnalist gödəkçələri vasitəsilə mətbuat nümayəndələri aksiya iştirakçılarından fərqlənirlər. Jurnalistlər aksiya iştirakçılarından seçilməlidir".

■ Azərbaycanda daha bir dərman vasitəsinin istifadəsinə qadağa qoyulub. Bu barədə hafta.az-a Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən məlumat verilib. Bildirilib ki, 028361 seriya ilə buraxılmış son istifadə tarixi 05.2023 olan "Fosfalyugel" ticarət adlı aluminium phosphate gel 20%, daxilə qəbul edilən gel 16 q №20 paketlərdə (saşe) dərman vasitəsinin geri çağırılması qərarı verilib.




■ İyunun 4-də Kəlbəcər rayonunda xidməti fəaliyyətlərini yerinə yetirərkən minaya düşərək şəhid olan "AZƏRTAC"ın əməkdaşı Məhərrəm İbrahimovun adı əbədiləşdirilib. M. İbrahimovun adı paytaxtın Məhəmməd Əmin Rəsulzadə qəsəbəsində yerləşən və vaxtilə özünün də yaşadığı küçəyə verilib. Bu barədə onun dostları sosial şəbəkədə paylaşım ediblər.

■ Ermənistanın keçmiş müdafiə naziri, "Ermənistan" fraksiyasının rəhbəri Seyran Ohanyan prokurorluğa çağırılıb. Ohanyan özü bu faktı təsdiq edib. Ohanyan ona qarşı başladılan cinayət işi çərçivəsində çağırıldığını və ilkin istintaq əməliyyatları davam etdiyindən detallar barədə məlumat verə bilmədiyini bildirib.

# Domen adının mübahisələndirilməsi mümkün deyil




**"Normalda domen adları hərflərin simvollarından ibarət və nöqtədən sonra dövlətlərin adını göstərən işarə ilə yekunlaşır.**

Məsələn, "az" Azərbaycana, "org" Amerikaya aiddir və s. Əgər hansısa onlayn media subyektinin hərf kombinasiyasında oxşarı varsa, bu məsələdə tərəflərə heç bir öncəlik tanınmaz. Sadəcə, mövcud qanunvericiliklə, belə bir məsələnin mübahisəsi aparıla bilər ki, hansısa media subyektinin loqotipindən istifadə edisin. Tutaq ki, sizin saytın loqotipi var və həmin loqotip standartdır".

■ **Bu fkirləri hafta.az-a açıqlamasında media məsələləri üzrə ekspert, hüquqşünas Ələsgər Məmmədli deyib. Onun sözlərinə görə, qanunla eyni loqotipin istifadəsi qadağandır:** "Tərəflər məhz bunun mübahisəsini apara bilərlər. Normalda qanunvericilikdə bu qadağa mövcuddur. Yəni əgər siz bir loqotipi qeydə aldırmısızsa, başqası eynisini istifadə edə bilməz, mütləq loqotipi dəyişməlidir. Yəni bu, "Müəllif hüququları haqqında" və "Patent haqqında" qanunla qorunur. Bunun xaricində domen adının hərflərin kombinasiyasında yaranan oxşarlıqdan dolayı mübahisələndirilməsi mümkün deyil. Nəzərə alaq ki, dünyada 200-dən çox dövlət var və eyni zamanda, hərflərin sayı əlifbada məhduddur. Belə olan halda, 7 milyarddan çox insanın faktiki olaraq hansısa kombinasiyalardan oxşar istifadəsi gözləniləndir. Bir daha vurğulayıram ki, burada mübahisə mövzusu sadəcə loqotip ola bilər".

✍ ***Sevinc***

# Şuşaya, Ağdama gedişhaqqı neçə manat olacaq?

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA - Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin bazasında yaradılır -red.) yanvarın 15-dən Qarabağa müntəzəm avtobus reyslərinin açılmasını planlaşdırır.**

Bu barədə mətbuata qurumdan bildirilib. Məlumata görə, söhbət Bakı şəhərindən, Füzuli rayonunun Əhmədbəyli kəndindən (Zəfər Yolu ilə) və Füzuli Beynəlxalq Hava Limanından Şuşa şəhərinə, eləcə də Bakıdan Ağdam şəhərinə marşrut xətlərinin yaradılmasından gedir. Bu məqsədlə daşıyıcıların seçilməsi üçün açıq müsabiqə elan edilib. Müsabiqədə iştirak haqqı 50 manatdır. İddiaçılar dekabrın 27-nə qədər ərizə ilə quruma müraciət etməli, yanvarın 6-na qədər isə əsas sənədləri, o cümlədən balanslarındada olan nəqliyyat vasitələri barədə məlumatları təqdim etməlidirlər.

"Daşıyıcılar seçilərkən rahat, ekoloji cəhətdən təmiz avtobusları olanlara üstünlük veriləcək. İlkin mərhələdə Qarabağa reyslər həftədə 2 dəfə olacaq. Əgər daşımalar rentabelli olarsa, reyslərin sayı artırıla bilər", - deyə AYNA-dan bildirilib. Bəs, görəsən, bu istiqamətdə gediş haqqı neçəyə olacaq?



■ **Məsələni hafta.az-a şərh edən nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov deyib ki, bu istiqamətdə avtobuslarla səfərlərin başlaması Azərbaycanın nəqliyyat sferasında yeni bir səhifədir:**

"Əlamətdar haldır ki, artıq Qarabağa, Azərbaycanın ürəyi sayılan Şuşaya müntəzəm avtobus reysləri açılır. Bununla yanaşı Ağdama, Qarabağın iqtisadi mərkəzi olmuş şəhərə də avtobuslarla səfərlərin başlaması Azərbaycanın nəqliyyat sferasında yeni bir səhifədir. AYNA-nın bununla bağlı elan etdiyi müsabiqədən məlum olur ki, hökumət şəhərlərarası sərnişindaşımada ekoloji təmiz və təhlükəsiz nəqliyat vasitələrinin istismarında maraqlıdır".

> *"Biz sözügedən şəhərlər üçün tarifi bugünkü 9.50 ilə ölçsək doğru olmaz"*

Onun sözlərinə görə, şəhərlərarası sərnişin daşınmada tarif əsasən nəqliyyat vasitəsinin komfortluğundan, tutumundan və səfər məsafəsindən asılı olaraq təyin edilir: "Bu gün Bakı Beynəlxalq Avtovağzalından 40 nəfərlik dizel və ya benzinlə çalışan avtobusların 400 km məsafədə yerləşən şəhərə bilet qiyməti, təxminən, 9 manat 50 qəpik təşkil edir. Şuşa və Ağadama təşkil olunacaq müntəzəm avtobus reysləri bu parametrlə ölçülməyə bilər. Qarabağ iqtisadi zonası üçün xüsusi tariflər müəyyən edilə bilər. Bu qərarı artıq hökumət verəcək. Onu da deyim, bugünkü tariflər ortadır, əlçatandır.

Biz sözügedən şəhərlər üçün tarifi bugünkü 9.50 ilə ölçsək doğru olmaz. İstismar olunacaq avtobusların komfortu və tutumundan aslıdır. Burada istismar olunacaq nəqliyyat vasitəsi daha təhlükəsiz, komfortlu olacaq. Qiymətlər artıq səfər təşkil olunanda həmin tarixə və vəziyyət uyğun yəqin ki, müəyyən ediləcək. Çünki enerji daşıyıcılarının dünyada qiyməti də burada rol oynayır. Bu gün təyin edilən qiymət sabah aktual olmaya bilər".

✍ ***Sevinc***

# “Media haqqında” yeni qanun daha əhatəli və genişdir

## Media



**Vüqar Ziferoğlu,**
BDU-nun Jurnalistika fakültəsinin dekanı

**Məlum olduğu kimi, “Media haqqında” yeni qanun layihəsi Milli Məclisin və medianın müzakirəsinə verilib. “Media haqqında” qanun mətbuatın mövcud problemlərinin həllinə nail olmaq üçün hansı imkanları yaradacaq? Yaxud mediamız hansı problemlərlə üz-üzədir? Qaldırılan məsələlər nə dərəcədə qaneedici və obyektivdir? Bu və digər məsələlərlə bağlı hafta.az-a müsahibə verən BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu maraqlı məqamlara diqqət çəkib.**

***- Vüqar müəllim, bu günlər “Media haqqında” yeni qanun layihəsinin Milli Məclisdə bir sıra media orqanlarının nümayəndələri ilə müzakirəsinə şahidlik edirik. Təqdim olunan qanun layihəsi və ilkin müzakirələri nə dərəcədə əhatəli, qanedici və obyektiv hesab etmək olar?***

- Milli Məclisdə təşkil olunan müzakirə kifayət qədər geniş, əhatəli oldu və böyük bir heyətlə təşkil edilmişdi. Müzakirələrdə təxminən 40-a yaxın media qurumunun rəhbəri, media mütəxəssisləri, eyni zamanda 10-dan artıq deputat iştirak edirdi. Hər kəs öz fikirlərini bildirdi, suallar cavablandırıldı, müəyyən məqamlara aydınlıq gətirildi. Yəni, qanunun Məclis komitələri ilə birgə təşkil edilən müzakirəsini kifayət qədər məhsuldar və dinamik hesab etmək olar. Qeyd edim ki, bu müzakirələr Milli Məclisdən əvvəl də aparılıb.

Düşünürəm, bundansonrakı müzakirələr də mütəxəssislərlə, media quruluşu rəhbərləri ilə görüşlərin keçirilməsi ilə davam edəcək. Heç şübhəsiz, məlum müzakirələrin daha geniş media seqmentində müzakirəyə çıxarılması ilə bağlı subyektiv yanaşmalar da ortaya çıxır. Ola bilər ki, qanunun müzakirəsi hansısa media orqanlarında aparılmasın. Bizə məlumdur ki, Milli Məclisdə başlanan genişterkibli müzakirələrdən əvvəl ayrı-ayrı informasiya portallarında, digər media quruluşlarında və MEDİA-da media rəhbərlərinin iştirakı ilə müzakirələr aparılıb. Yəni qanunun müzakirəsi ilə bağlı proses gedir...

***- Yeni layihədə bir çox dəyişikliklərə imza atılacağı, o cümlədən “Televiziya yayımı haqqında” və “KİV haqqında” qanunların qüvvədən düşəcəyi qeyd olunur. Hansı dəyişiklikləri zəruri hesab edirsiz, bu, media sistemində mövcud olan hansı boşluqları aradan qaldıra biləcək?***

- Bu, ümumiyyətlə, vahid media qanununun hazırlanması baxımından əhəmiyyətlidir. Sadalanan ayrı-ayrı qanunların yerinə medianı tənzimləyəcək tək qanun aktının qəbul olunması özlüyündə müsbət haldır. Media haqqında qanunla tam tanış oldum. Ümumilikdə qanunda yeni tendensiyalar da öz əksini tapıb.

Yeni qanun müasir mediada istifadə olunan məqamlarla bağlı anlayışların şərhini təqdim edir. Qanunda media savadlılığı məsələsi var. İlk dəfə olaraq KİV haqqında qanunvericiliyə media subyekti olaraq onlayn medianın gətirilməsi, vahid kart məsələsi və sair bu kimi məsələlər kifayət qədər maraqlı və müasir tendensiyalara cavab verən məqamlar kimi qiymətləndirilə bilər. Etiraf edək ki, KİV haqqında qanun köhnəlmişdi və müasir çağırışlara cavab vermirdi. Bu mənada, müasir çağırışlara cavab verən qanunun hazırlanmasına ehtiyac var idi. Müzakirə zamanı da həmkarlarımız qeyd etdilər ki, burada jurnalistlər, yəni biz maraqlı tərəfik. Təbii ki, biz istəyirik ki, bu qanunda hər şey istədiyimiz kimi öz əksini tapsın. Nəzərə almaq lazımdır ki, qanun qarşılıqlı münasibətləri tənzimləyən bir aktdır. Bu mənada bütün maraqlar nəzərə alınmalıdır. Burda jurnalist kimi yalnız mənim marağım deyil, eyni zamanda mənim jurnalist olaraq xidmət etdiyim cəmiyyətin də maraqları təmin olunmalıdır. Bəli, müzakirələrdə kifayət qədər maraqlı təkliflər oldu, rəylər səsləndi, düzəlişlər təklif edildi. Mənim də qanunla bağlı bir sıra təkliflərim oldu. Ümid edirəm ki, komissiyaların təşkil etdiyi sonrakı müzakirələrdə bunlar nəzərə alınacaq.

***- Sizin təklifiniz nə ilə bağlı idi?***

- “Media savadlılığı” məsələsinin qanunda yer alması şəxsən mənim üçün çox maraqlı gəldi, qanunvericiliyə gətirilməsinə sevindim. Amma ona çox az yer ayrılıb. Müasir jurnalistikada media savadlılığı çox ciddi məsələdir. İstər Qərbdə, istərsə də Türkiyədə media savadlılığına diqqət və geniş yer ayrılır. Bu, bizim qanunvericilikdə çox cüzi şəkildə, 3 cümlə ilə təqdim olunur. Milli Məclisdəki çıxışımda da qeyd elədim ki, bu maddəni daha geniş açmaq lazımdır. Media savadlılığı məsələsi geniş bir anlayışdır. Qərbdə, Türkiyədə media savadlılığı platformasından elə istifadə edirlər ki, bu, bütövlükdə cəmiyyətin maarifləndirilməsi işinə xidmət edir.

Konvergent jurnalistika ilə bağlı məsələlərin daha aydın şəkildə təqdim edilməsi çox yaxşı olardı. Bu hər hansı media quruluşu yalnız bir platformadan auditoriyası ilə işləmir. Müasir jurnalistikanın tələbləri dəyişib.

Ümumilikdə qanunla tanış olanda hiss edirsən ki, üzərində doğrudan da ciddi əmək sərf edilib. Əslində bir sıra suallara cavab da var. Sadəcə ola bilər ki, bəzi məqamlar daha sadə dildə verilsə yaxşı olar və ya daha aydın şəkildə təqdim edilməlidir.

***- Deməli, əsas problemin onun icrası ilə bağlı olduğunu deyə bilərik...***

- Təbii ki, qanunda nəzərə tutulan bir sıra məqamlarla bağlı icra mexanizminin necə təşkil ediləcəyi də maraqlıdır və yəqin ki, gələcəkdə bununla da bağlı mütəxəssislərin iştirakı müəyyən müzakirələr təşkil ediləcək. Yeni qanun KİV haqqında köhnə qanunumuzdan (2001-2019) daha əhatəli, daha geniş, çoxşaxəlidir. Jurnalistika ilə bağlı müasir tendensiyalar nəzərə alınıb. Hər kəs müqayisə apara bilər.

***- Bildirilir ki, internet televiziyaların fəaliyyət göstəməsi üçün lisenziya almaları məcburi xarakter daşımayacaq. Yəni lisensiya almayan internet televiziyaları da öz fəaliyyətini maneəsiz davam etdirə biləcəklər. Bu, internet televiziyalarının inkişafında hansı maneəni aradan qaldırmış olacaq?***

- Bu qanun heç bir halda azad şəkildə fəaliyyət göstərməyi məhdudlaşdırmır. Bayaq qeyd etdiyim kimi, yeni tendensiyaların, yeni çağırışların qanuna gətirilməsinin özü çox müsbət haldır. Biz burda artıq bir sistemliliyi, işlək bir mexanizmin təklif edilməsini görürük. Məsələn, konvergent jurnalistikanı götürək. Mən orda da qeyd etdim ki, konvergent jurnalistikanın daha geniş açılmasına ehtiyac var.

> “Yeni qanun müasir mediada istifadə olunan məqamlarla bağlı anlayışların şərhini təqdim edir

Bu gün biz faktiki olaraq medianın konvergensiyasını görürük və bunun içindəyik. Yəni informasiya portalıdır, TV-si də var, qəzetdir, saytı da var, internet televiziyası da var. Burda şaxələnmə baş verir. Bildirmək istərdim ki, bu məqamı orada tək mən yox, başqa mütəxəssislər də qeyd etdilər. Yaxud başqa çox ciddi bir məqamı qeyd edim - 7-ci fəsildə jurnalistlərin fəaliyyətləri var: maddə 70, 71, 72... Mən bu fəsilə mütləq jurnalistin sosial məsuliyyət məsələsinin də əlavə edilməsini təklif etdim. Soruşa bilərsiniz, buna nə ehtiyac var. Hər hansı bir qanun hüquqi tənzimləmədir. Lakin jurnalistikada özünütənzimləmə də var. Ümumiyyətlə, jurnalistin fəaliyyəti üçün tanınan azadlıq, əsla onu cəmiyyət qarşısında daşımalı olduğu məsuliyyət hissindən azad etmir. Bu vacib məqamın qanunda əksi üçün ayrıca bir maddənin əlavə olunması doğru olardı. Xüsusilə də indiki müharibə şəratində. Qarabağda baş verən proseslər müstəvisində düşmən bizim media məkanımıza müəyyən dezinformasiyalar ötürməyə çalışır. Təbii ki, burada obyektivlikdən, qərəzsizlikdən, vicdanlılıqdan söz gedir. Yəni bütün bu meyarlar sosial məsuliyyət hissidir.

***- Yenilənən Media qanunu fonunda istərdim, bu gün media və jurnalistikadakı mövcud vəziyyətlə bağlı müəyyən məqamlara da toxunasınız. Bizim müasir mediamız hansı üstünlüklərilə diqqət çəkir, nədə gecikir, yaxud bu media cəmiyyətin güzgüsü rolunu oynaya bilirmi?***

- Həsən bəy Zərdabi yazıb ki, hər qəzet öz məmləkətinin aynasıdır. Biz jurnalistlər bəzən həm də öz mediamıza çox tənqidi yanaşırıq. Bəli, ümumi götürəndə Azərbaycan jurnalistikasında problemlər var. Sadəcə, biz əl-ələ verib bu problemlərin aradan qaldırılması yollarını axtarmalıyıq. Bununla bağlı təkliflər verməklə yanaşı, onun həlli yolunda aktiv olmalıyıq. Məsələn, bu gün “reket jurnalistikası” ciddi problem olaraq qalır. Milli Məclisdə olan müzakirədə də bu məsələyə toxundum. Mən deyərdim ki, bu, 90-cı illərin ortalarından bizə “miras” qalan və Azərbaycan jurnalistikasına ləkə gətirən bir problemdir. Bu ləkə əvvəl qəzetlərlə bağlı idisə, indi saytlara, onlayn tv-lərə də sirayət edib. Bu baxımdan, həmkar olaraq bu məsələlərdə mövqe ortaya qoymağımız olduqca vacibdir. Məsələn, kimə xoş gələr ki, bir bölgəyə qohumunun, dostunun yanına gedəndə, orda ona deyələr ki, “sənun həmkarın gəlmişdi, belə etdi, yola saldıq”. Hərdən elə sözlər eşidirsən ki, deyirsən axı mən, yaxud mətbuatda şərəfi ilə çalışan, neçə əziyyətə qatlaşan həmkarlarımın heç biri bu sözəri eşitməyə layiq deyilik. Həlli nə qədər mürəkkəb görünsə də, əslində çətin deyil. Bu cür neqativ məsələlərin üzərinə həmkar olaraq getməliyik.



Digər tərəfdən, Azərbaycan jurnalistikasında müasir çağırışlara adaptasiya məsələlərində də problemlər var. Söhbət onlayn medianın alətlərindən lazımi şəkildə, tam istifadə etməkdən gedir. Konvergent jurnalistikanı təsadüfən demədim. Söhbət müasir internet və rəqəmsal alətlərin bizim qarşımızda açdığı imkanlardan düzgün istifadə etməkdən gedir. İnformasiya ilə iş prosesi 10-15 il bundan əvvələ baxanda tamamilə fərqlənir. Hətta janrlar öz xüsusiyyətlərini dəyişib. Məsələn, 20 il əvvəl mən jurnalistikada oxuyanda rəhmətlik Famil müəllim esse janrını bizə bədii-publisistik janr kimi keçirdi. Yaxşı, bu gün esseyə olan tələb necədir? Bu gün beynəlxalq jurnalistikada esse artıq analitik elementləri də özündə ifadə edən janr kimi qəbul olunur, təbii ki, bədii elementləri də saxlamaqla. İnformasiyaya baxış dəyişib, jurnalistika, media dəyişib, yeni formatlar ortaya çıxıb, bu gün artıq bloggerlikdən danışırıq. 15 il qabaq bu qeyri-ciddi qəbul olurdu. Bu gün bloggerlik jurnalistikada ciddi bir axın, ciddi bir istiqamətdir. Bu yenilənməyə sosial medianı da əlavə etmək olar. Bu da bir problem və istiqamətdir. Məsələn, professional media ilə sosial media arasında fərqlər, gedən mübarizə müzakirə predmetidir. Suallar yaranır - biz bu gün professional media olaraq sosial medianın arxasınca getməliyikmi?

Getməyimiz doğrudurmu, getməyə bilərikmi və ya necə etməliyik ki, bu münasibətlər qarşılıqlı olsun. Məsələn, BDU Jurnalistika fakültəsində onlayn media, yeni media, sosial media, vətəndaş jurnalistikası, media savadlılığı, datalarla iş prosesi istiqamətində tədris aparırıq, bunları tələbələrimizə izah edirik. Nəzərə alaq ki, bu gün jurnalistikada yalnız bizim tələbələr deyil. Bu səbəbdən görüləcək iş çoxdur. Əlavə treninqlər, təlimlər, kursların təşkili vacibdir. Bu mənada, məsələn, Medianın İnkişafı Agentliyinin təşkil etdiyi təlimlər çox maraqlıdır və hər bir jurnalistə həmin təlimlərdə iştirak etməyi tövsiyə edirəm.

***- İstənilən fəaliyyət növünün uğurlu iş ortaya qoya bilməsi üçün peşəkarlıqla yanaşı müəyyən vəsaitin olması da tələb olunur. Məsələyə bu aspektdən yanaşsaq, necə hesab edirsiz, media orqanı öz məhsulunu sata bilirmi və real olaraq Azərbaycan jurnalistikasında bunun üçün hansı imkanlar, bazar mövcuddur?***

- Ümumiyyətlə, media-biznes, media iqtisadiyyatı, media-menecment ayrı bir sahədir. Biz bunu universitetdə tədris edirik. Ümumilikdə daha geniş anlamda bu prosesin izlənməsi, sistematik təcrübələrin öyrənilməsi ilə daha uğurlu nəticə əldə etmək olar və bu çox vacib məsələdir. Bizdə isə belə bir tendensiya yaranıb: “media-biznes, media-iqtisadiyyatı, medianın özünü maliyyələdirməsi, maliyyə cəhətdən müstəqil olması”nı deyən kimi, ağlımıza ilk gələn nə olur - REKLAM. Bəli, reklam media quruluşunun inkişafı baxımından əhəmiyyətlidir, bunu heç kim inkar edə blməz. Amma tək reklam olmamalıdır. Sən həm də istehsal etdiyin məhsulu, informasiyanı satmağı bacarmalısan.

***- Amma mətbuat orqanları öz məhsulunu pulsuz paylayır, niyə?***

- Milli Məclisdə aparılan son müzakirələrdə bu məsələyə də toxunuldu. Bu gün Azərbaycan mediasında ciddi bir problem var - “copi-past” - plagiat problemi. Peşəkar saytlarda öz müxbirləri xəbərlər hazırlayır, 10-15 sayt isə götürüb o məlumatların 1-ci cümləsini dəyişməklə öz saytlarında verirlər. Razılaşarsınız ki, bu gün Azərbaycan saytlarının 3-4-nə baxmaq kifayətdir ki, bütün portal və saytlarda gedən xəbərlər barədə məlumatlı olasan. Problem budur. Oxucu informasiya almaq istəyirsə, bunun üçün pul verir. Və bu pulu nə üçün verdiyini bilir. Ona görə də oxucunu maraqlandırmaq lazımdır.

***- Burada həm də hər hansı bir media orqanının öz piarı, özünü necə tanıda bilməsi də problem olur. Onun jurnalist qrupunu saxlamaq, piar aparmısı üçün vəsaitə ehtiyacı var.***

- Siz dediyiniz kimi, bunun üçün o qədər də böyük vəsait lazım deyil. Zatən professional media quruluşlarına maddi yardımlar edilib və yenə edilir. Həmin vəsaitlə əməkdaşlarının pulunu verib, piarını da apara bilər və sair. Bu istiqamətdə iş düzgün qurulsa, sabah o yardıma da ehtiyac qalmaz. Siz öz brendinizi yaradın, imicinizi formalaşdırın, bundan sonra reklam da olacaq, abunələr də, təqdim etdiyiniz kontentiniz də satılacaq. Bəli, burada hər bir media quruluşunun özünün brendini yarada bilməsi məsələsi, piarını düzgün qurması problemi var.

Gəlin Qərblə müqayisədə bir müqayisə aparaq. Təqribən, 1990-cı illərin axırlarında Qərbdə “Washington-post”, “New York Times”, “BBC”, “CNN” kimi məşhur media şirkətləri internetin kütləviləşməsi ilə bağlı gedən dəyişiklikləri düzgün təhlil edərək, onlayn platformaya keçid etməyə başladılar. Bəs bu proses Azərbaycanda nə vaxt getdi? 2000-ci illərin axırları müəyyən mənada bunu bizdə müşahidə etməyə başladıq.

✍ *Tahirə*

# Jurnalistlər üçün güzəştlər

## Müzakirə

**Media sahəsində fəaliyyət göstərən şəxslər üçün güzəştlər və imtiyazlar müəyyənləşir. Hafta.az-ın məlumatına görə, bu, “Media haqqında” qanun layihəsində əksini tapıb. Layihəyə əsasən, Media Reyestrinə daxil edilmiş şəxslər üçün aşağıdakı güzəşt və imtiyazlar müəyyənləşdirilə bilər:**

*- media subyektlərinə dövlət orqanları (qurumları) tərəfindən rəsmi elan və sosial reklamların sifarişi;*



**Qulu Məhərrəmli,**
media eksperti

*- media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı;*

*- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlər üzrə layihələrdə iştirakı;*

*- maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;*

*- sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.*

> “Fərd olaraq kiməsə sırf jurnalist olduğu üçün güzəştlər edilməyi düzgün deyil...

> Jurnalist üçün, bazarda mövcud olan kredit faizlərindən 3% lik fərq tətbiq edilməsi güzəşt yox, əlverişli şərait yaratmaqdır...

■ **Məsələ ilə bağlı hafta.az-a açıqlama verən media eksperti Qulu Məhərrəmlinin sözlərinə görə, bizdə belə bir yanlış təsəvvür yaranıb ki, jurnalistlər cəmiyyətin xüsusi kateqoriyasıdır və onlara həddindən artıq çox güzəştlər olunmalıdır:** “Əslində söhbət ondan gedir ki, medianın fəaliyyəti üçün dövlət tərəfindən bəzi güzəştlər müəyyənləşdirilib. Bunlar çap kağızlarına tətbiq edilən vergilərin ləğv olunmasıdır. Yazılı media bundan ciddi şəkildə əziyyət çəkir. Fərd olaraq kiməsə sırf jurnalist olduğu üçün güzəştlər edilməyi düzgün deyil. Məsələnin mahiyyəti tam fərqlidir”.

Media eksperti hesab edir ki, peşə fəaliyyəti zamanı qarşılaşdığı çətinliklərin aradan qaldırılması məqsədilə jurnalistlərə müxtəlif sahələrdə güzəştlər olunmalıdır:

“Bunlardan biri də ictimai nəqliyyatdan istifadədir. Hansı ki, jurnalist vəzifəsindən istifadə edən zaman xüsusi maşını yoxdursa, ictimai nəqliyyatdan güzəştli yararlana bilsin. Bütün bu fəaliyyətlərin hər biri mahiyyət etibarilə vəzifə icrasını asanlaşdırmalıdır. Misal üçün deyim ki, teleradio yayımı ilə məşğul olan jurnalistə kommunal xərclərdə, yaxud da peykə çıxışla bağlı müxtəlif güzəştlər tətbiq oluna bilər”.

■ **Məsələnin iqtisadi tərəflərinə gəldikdə isə iqtisadçı ekspert Fuad İbrahimov bildirdi ki, hazırda paytaxt sakinlərinə şablon olaraq 18-20%-lə illik kredit verilirsə, jurnalistlər üçün bu rəqəm azı 50%-lik fərqlə olmalıdır. Əks halda bu güzəşt yox, endirim olur:**

“İqtisadi cəhətdən inkişaf etmiş dünya ölkələrində jurnalistlər üçün müxtəlif güzəştlər mövcuddur. Yaxşı olardı ki, bu güzəştlər müxtəlif paketlər şəklində edilsin. Misal üçün deyim ki, jurnalistə 3%-dən 5%-ə qədər ipoteka krediti, yaxud da endirimli istehlak kreditləri tətbiq olunsun. Bu gün paytaxt sakinlərinə şablon olaraq 18-20%-lə illik kredit verilirsə, jurnalistlər üçün bu rəqəm



**Fuad İbrahimov,**
iqtisadçı ekspert

15% olacaqsa bunun heç bir əhəmiyyəti qalmır. Çünki 3% elə bir ciddi göstərici deyil. Əsas onun qaytarılma mexanizmdir. Jurnalist üçün, bazarda mövcud olan kredit faizlərindən 3% lik fərq tətbiq edilməsi güzəşt yox, əlverişli şərait yatarmaqdır”.

İqtisadçı jurnalistlər üçün ediləbiləcək digər mühüm güzəştin ictimai nəqliyyatdan istifadənin xüsusi endirim kartı ilə tətbiqi, onlara mənzillərin paylanmasını, ipotekaya növbəsiz daxilolma imkanı olduğunu vurğuladı.

✍ *Banu*

# Yeni qanun boşluqları dolduracaq

**“Bu gün biz yeni media mühitindən danışırıq. Bir yerdə alternativ fikrə çıxış imkanları varsa, orda fikir azadlığından, medianın cəmiyyətin güzgüsü olmasından danışa bilərik. Yəni Azərbaycanda media plüralizmi, cəmiyyətin mediaya çıxış imkanları alternativ fikirlərlə təmin olunub.**




Təbii ki, müəyyən boşluqlar da var. Düşünürəm ki, “Media haqqında” yeni qanun bu istiqamətdə boşluqları dolduracaq”.

■ **Bunu hafta.az-a Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli “Media haqqında” yeni qanunla bağlı şərhində bildirib. M.Ələsgərli bildirib ki, bu qanunda çox yenilikləri, pozitivləri sadalamaq olar. Bunların heç biri haqqında danışılmır. “Çoxları köklənib opponentliyə, neqativə. Bir az da dərinə gedəndə məlum olur ki, qanunla tanış deyillər”.**

M.Ələsgərli etirazçıları iki qrupa böldu. Onun sözlərinə görə, birinci qrup qanunu oxuyub, sadəcə sifarişli olaraq niyyətləri yalnız qanunu tənqid eləməkdir. Onlar ictimai rəyə təsir göstərə bilirlər. İkinci qrup isə səmimidir, sadəcə o qanuna sona qədər baxmağa vaxtları yoxdur. “Qanun layihəsi yaxşıdır. Layihədə hər şey yerindədirmi, elə olduğu kimi qəbul olunmalıdırmı, elə də deyil”. Media eksperti neqativ yanaşmanı yanlış hesab edərək, bildirib ki, parlamentdəki son müzakirələrə qədər “Media haqqında” qanunla bağlı 5 qrup üzrə müzakirələr keçirilib.

“Birinci, qanun layihəsinin ilkin eskizləri çap mediasının nümayəndələri, ikinci mərhələdə elektron media qurumları, onlayn media nümayəndələri ilə müzakirə olunub. Dördüncü müzakirələr media ekspertləri və hüquqşünaslarla aparılıb. Bundan əlavə, ayrı-ayrı legitimləşdirilmiş redaksiyalarda da əlahiddə görüşlər keçirilib. Ümumi statistikaya görə, müzakirələrə 800 adam cəlb olunub. Təqribən, orta hesabla, may-iyun ayından başlayaraq qanunun mərhələlərlə müzakirəsi keçirilib”. M.Ələsgərli bildirir ki, “Media haqqında” yenin qanun layihəsi KİV qurumlarının öz domen adı, loqotipi ilə reystrdən keçirilməsini nəzərdə tutur. Bu, istənilən KİV orqanının plagiat hücumundan qorunmasına, müəllif hüquqlarının pozulmasının qarşısının alınmasına yönəlir. Əgər köhnə KİV haqqında qanunun 60-cı maddəsində “plagiatlıq yolverilməzdir” və 11-ci maddədə ümumi şəkildə “sui-istifadə yolverilməzdir”, - deyə yazılırdısa, yeni qanunda birbaşa onun qorunmasının detalları göstərilib. “Yeni qanunda yazılır ki, KİV qurumunun özünəməxsus loqotipi, rekvizitləri olmalıdır. Sabah sizin media orqanı plagiatla rastlaşanda artıq qapı-qapı düşüb 5 dənə müəssisəyə getməyinizə ehtiyac qalmayacaq. Reyestr xidmətinə müraciət edib, rekvizit, loqonu təqdim etməklə, ordan verilən rəy əsasında hüququnuzu təmin edə biləcəksiniz.

> “Nəinki Azərbaycanda dünyanın əksər ölkələrində bujurnalistlərin hüquqları tanınmır”

Eləcə də bizə bəllidir ki, yeni onlayn media tipləri illərdir Azərbaycanda mövcuddur. Amma sizin mövcudluğunuz hüquqi baxımdan təsdiqini tapmayıb. Əgər vəsiqələriniz varsa, başqa hüquqlarınız təmin olunursa, o zaman niyə fəaliyyətinizdə boşluq yaranır. Sizin statusunuz bəlli deyil. Deməli, siz işi qurmusunuz, qeydiyyatdan keçmisiniz, amma jurnalist kimi hüquqlarınızın tannmasında problemlər var. Yeni qanun sizin bu hüququnuzu tanıyır, qanuniləşdirir, sizə status verir”. M.Ələsgərli bildirir ki, yeni qanunda elə maddələr var ki, Avropanın özünə töhfələr verir. Ekspert bu aspekstdə qarşılıqlı sərbəst çalışan jurnalistlərin fəaliyyətinə diqqət çəkib. Bildirib ki, nəinki Azərbaycanda dünyanın əksər ölkələrində bu jurnalistlərin hüquqları tanınmır. Onun fikrincə, internetin inkişafına uyğun olaraq bu gün “freelance” jurnalsitika da özünün inkişaf dövrünü keçir. Dünyanın 2-3 ölkəsində hüquqları tanınır. Fəaliyyət göstərirlər, amma çətinliklərlə üzləşirlər.

“Bəllidir ki, bütün dünyada olduğu kimi, 2020-ci ildə pandemiya ilə bağlı Azərbaycanda da sərt karantin rejimi oldu. O zaman icazəli fəaliyyət və məhdudiyyət hərəkətləri tətbiq olundu. Bir neçə sahə var ki, onların fəaliyətinə icazə verilirdi ki, onlardan biri də KİV idi. O zaman həmin “freelance” jurnalsitlər peşə vəsiqələri olmadığına görə çox ciddi şəkildə problem yaşayırdılar. Onlar Mətbuat Şurasına müraciət edib xahiş elədilər ki, digər jürnalistlər kimi sərbəst çalışan jurnalistlərin də fəaliyyəti tanınsın. Bugünkü qanun onlara o hüququ verir və onları jurnalist kimi tanıyır”.

✍ *Tahirə*

# "Suraxanı" gəmisi - dünyada ilk tanker-muzey

## Reportaj




***Pandemiya ilə əlaqədar uzun müddət qapalı qalan muzeylər artıq qapılarını ziyarətçilərinin üzünə açıb. Belə mədəni istirahət məkanlarından biri də "Suraxanı" gəmi-müzeydir. Hafta.az olaraq muzeyin fəaliyyəti və burada sərgilənən eksponatlarla tanış olmaq üçün üz tutduq sözügedən məkana... Vaxtilə Xəzərin mavi sularında üzən üzən "Suraxanı" gəmisi dünyanın ilk tankeri "Zoroastr"-la əsası qoyulan Azərbaycanın dənizlə neftdaşıma tarixində mühüm rol oynayıb. Uzunluğu 123.5 metr, dedveyti isə 4 696 ton olan "Suraxanı" tankeri Xəzər dənizində 1957-ci ildən istismara verilən "Mühəndis A.Pustoşkin" tipli gəmidən biridir.***

Hazırda "Suraxanı" gəmisi dünyada ilk tanker-muzey olaraq fəaliyyət göstərir. Burada müxtəlif dövrlərə aid eksponatlar sərgilənir, həmçinin ölkəmizdə gəmiçilik ənənəsinin qədimiliyini özündə əks etdirən alətlər, video çarxlar ziyarətçilərə nümayiş olunur.

### Böyüklər 5, uşaqlar üçün 2 manat

**Muzeyə giriş biletləri böyüklər üçün 5, uşaqlar və tələbələr üçünsə 2 manatdır. Şəhid ailələri, məkanı ödənişsiz ziyarət edə bilərlər. Muzey həftə sonları adi günlərə nisbətən daha qələbəlik olur.**



Gəmi-muzeydə eksursiya zamanı bizi bələdçi Leyla Bağırova müşayət etdi. Girişdə ziyarətçiləri kapitan və gəmi heyəti qarşılayaraq salamlayır. Daha sonra heyət üzvləri gördükləri işlə bağlı məlumat verirlər. "Salamlama" zalında cürbəcür, fərdi və kollektiv xilasedici vasitələr sərgilənir. Qoyulan hər bir eksponatın tarixi də özü qədər maraqlıdır.

Misal üçün deyək ki, buradakı dalğıc kostyumu 2-ci dünya müharibəsində istifadə olunub. Sərgilənən hər bir eksponatın qarşısına 2 dildə adını göstərən lövhəciklər qoyulub. Onların tarixi və harada istifadə olunduğu barədə məlumatlar əks olunmasa da, bələdçilər bu haqda ziyarətçilərə məlumat verirlər.

### "Yanalma və lövbər əməliyyatları"

**Növbəti zal isə "Yanalma və lövbər əməliyyatları" zalıdır. Burada adından da bəlli olduğu kimi, lövbərlər görmək mümkündür.** Zalın tən ortasında mövcud olan boruların birində həqiqi lövbər, digərində isə animasiya ilə onun atılması görünür. Həmin otaqda dəniz düyünləri, onların bağlanma üsulları da əks olunub. Hətta ziyarət edənlər dəniz düyünü bağlamağın yollarını yoxlaya bilərlər. Zalda daha çox azyaşlıların diqqətini cəlb edən "yanalma" oyunu oynamaq üçün xüsusi avadanlıq quraşdırılıb.



### Xəzərin ruhu" zalı

**Muzeyin digər maraqlı otaqlarından biri olan "Xəzərin ruhu" zalı öz unikallığı ilə göz oxşayır.** Burada Xəzər Dənizinin və ümumilikdə regionun milyon illər ərzindəki inkişafı, həmçinin Qobustan qaya üzərindəki rəsmlərinin maketləri öz əksini tapır.

Zalın ikinci hissəsində isə, ziyarətçilərə Azərbaycanda ilk olan unikal 360 dərəcəli ekranla qədim dövrərdən günümüzə qədər gəmiçilik ənənələrinin göstərildiyi videoçarx təqdim olunur.



### "Gəmilər və Gəmiçilik"

**"Gəmilər və Gəmiçilik" zalı da gözoxşayan tərzi ilə digərlərindən heç də geri qalmır.**

Zalda Azərbaycana və dünya ölkələrinə aid müxtəlif təyinatlı gəmilərin kiçik maketləri ilə tanış olmaq mümkündür. Nümayiş olunan ən möhtəşəm maket isə 5 metr uzunluğa malik "Suraxanı" gəmisinin əsrarəngiz bənzəridir. Bələdçinin sözlərinə görə, maketlərin hər birində əslində olduğu kimi ən incə detallar belə öz əksini tapmaqdadır. Maketlər ASCO şirkətinin sifarişi ilə Çində hazırlanaraq ölkəmizə gətirilib.



Bundan başqa zalda, gəminin muzey halına gətilirməsi üçün nə cür restavrasiya olunması ilə bağlı videoçarx göstərilir. Həmçinin simulyatorlar vasitəsilə gəmilərin hansı formada təmir olunduğunu da görmək mümkündür. Tərsanələrdə mövcud olan xüsusi qurğular gəmilərin təmiri zamanı istifadə olunur ki, bununla da muzeydə tanış olmaq olur.



### Muzeyin "mirvarisi"

**Keçid aldığımız növbəti otaq isə 5-ci yəni, "Naviqasiya və kommunikasiya" zalıdır. Burada həm qədim, həm də müasir dövrün naviqasiya vasitələri sərgilənir.**

Bələdçinin, muzeyin "mirvarisi" adlandırdığı hissədə Böyük Britaniya, Hollandiya və s. ölkələrdən gətirilən qədim naviqasiya alətləri - maqnit kompas, qrafometr, bölücü pərgar yerləşdirilib. Muzeyin ən qədim - 1740-cı ilə aid olan eksponatı "Deyvis Kvadrant"ı (Davis quadrant) da məhz "Naviqasiya və kommunikasiya" zalındadır. Sözügedən alət keçmiş zamanlarda göy cisimlərinin dənizdəki hündürlüyünü müəyyən etmək məqsədilə istifadə edilib. Hazırda ondan dünyada yalnız 2 ədəd var. Onlardan biri Suraxanı gəmi muzeyində, digəri isə Böyük Britaniyadadır.

Hazırda haqqında bəhs etdiyimiz məkanın bir özəlliyi də ölkəmizin qədim tarixini özünəməxsus şəkildə əks etdirməsidir. Belə ki, müasir "Naviqasiya masasının" üzərində ulduz səması əks olunub. Bu mənzərə ilk baxışdan normal görünsə də ona, yeni doğulan "Azərbaycan"ın ulduz xəritəsi



də deyə bilərik. Hansı ki, 28 may 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günü Azərbaycan səmalarında ulduzlar məhs bu formada görülüb. Otağın tavanlarını "siqnal bayraqları" bəzəyir. Nəzərinizə çatdıraq ki, keçmiş zamanlarda gəmilər öz aralarında belə bayraqlar vasitəsilə xəbər mübadiləsi edə bilirlərmiş. Asılmış hər bayraq bir məna daşıyır.

"Yükdaşıma" zalının mərkəzində Bakı Gəmiqayırma Zavodunun tam detallı maketi öz əksini tapır. Otaqda, koneynrları və içərisindəki yükləri göstərən xüsusi divarlar da var. Həmçinin, monitorlar vasitəsilə koneynerlərin kran vasitəsilə gəmilərə necə yerləşdirildiyi göstərilir.

### Dünyanın ən birinci tankeri - "Zərdüşt"

**"Dəyərlərdə həmrəylik, inkişafa sadiqlik" zalının bir hissəsində ASCO şirkətinin yaranma tarixi və bu günü göstərilir.**

Otaqda sərgilənən sənədlər milli arxivdən götürülmədir. Zalda eyni zamanda dünyanın ən birinci tankeri - "Zərdüşt"lə də tanış olmaq olar. Baş guşədə isə, Ümumilli lider Heydər Əliyevin gəmiçilik siyasətindən bəhs edən elektron kitab quraşdırılıb.

İndi haqqında bəhs edəcəyimiz məkanı isə bələdçi gəminin "ürəyi" deyə təqdim etdi. Maşın şöbəsində 2 ədəd baş mühərrik, 2 ədəd köməkçi mühərrik və hava balonlarını görə bilərik.

Muzeyin "Dənizçilər qalereyası" adlanan hissəsində ölkənin və dünyanın gəlmiş-keçmiş ən peşəkar dənizçilərinin rəsmləri əks olunub. Həmçinin burada gəmi heyətinin yataq, istirahət otaqları və mətbəxi dövrünə uyğun dizayn edilmiş formada təqdim olunur.

Ekskursiyanın davamı isə baş heyətin yaşadığı xüsusi bölmədə oldu. Burada kapitan və onun köməkçilərinin otaqlarını gəzə bilərsiniz.

Bundan başqa, diqqət cəlb edən bir digər məqam malakofauna, mərcanların və digər flora və fauna nümunələrinin sərgiləndiyi güşədir. Guşəyə qoyulan nümunələrin hər biri orijinal dəniz canlılarının qurudulmuş formasıdır.

Qeyd edək ki, muzey daxilində milli mətbəxin ləziz təamları hazırlanan restoran fəaliyyət göstərir. Bələdçinin sözlərinə görə, vətəndaşlar burada özəl günlərini qeyd etməyə üstünlük verirlər.

Nəzərinizə çatdıraq ki, Suraxanı gəmi-tanker muzeyi, bazar ertəsi və çərşənbə axşamı istisna olmaqla digər günlərdə ziyarətçilərinin üzünə açıqdır. Muzeydə 6 bələdçi gələn qonaqlara Azərbaycan, Rus və İngilis də daxil olmaqla fərqli dillərdə məlumatlar verirlər.

Sonda onu da deyək ki, "Suraxanı" tankerinin muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi gəmiçilik ənənələri olan ölkələrin bu sahədə böyük təcrübəsindən istifadə olunub. Gəmi-muzeyin beynəlxalq standartlara cavab verməsi məqsədilə 100-dən çox nüfuzlu xarici və yerli şirkətlə əməkdaşlıq edilib.

Layihənin konsepsiya və dizaynını bu sahədə 90 illik təcrübəyə malik, bir çox uğurlu layihələrə imza atan Böyük Britaniyanın "Freeman XP" şirkəti təqdim edib. Dizaynın layihələndirilməsi isə dünyaca məşhur muzey, elm mərkəzləri, müxtəlif mövzulu pavilyonların hazırlanmasında peşəkarlığı ilə seçilən Niderlandın "Hypsos" şirkətinə həvalə olunub.

Muzeyin zallarında ən müasir texnoloji avadanlıqlardan istifadə edilməklə, bir sıra innovativ yeniliкərə imza atılıb. Ziyarətçilər burada Xəzərin tarixi, Abşeronda neft hasilatı, gəmiçiliyin inkişafı, dünyada ilklərdən sayılan gəmilər, dəniz nəhəngləri, gəmiçiliyin ayrılmaz atributlarından olan naviqasiya alətləri, 5000 ilə yaxın tarixə malik dəniz düyünləri, gəmilərin istismarı zamanı istifadə edilən avadanlıqlarla yaxından tanışlıq imkanı qazanacaqlar.

✍ *Banu*

# Manat ucuzlaşıb, dollar bahalaşarsa...




**Son günlərdə qardaş Turkiyədə lirənin kəskin ucuzlaşması fonunda bu amilin Azərbaycana da müəyyən təsirlərinin ola biləcəyi ilə bağlı iddialar var. Bəs görəsən, Azərbaycan mümkün risklərdən necə sığortalanıb? Manatın dəyər itirməsi təhlükəsi varmı?**

"Əslində, Azərbaycan hökuməti uzun müddətdir ki, dolların kursunu inzibati yollarla tənzimləyir. Ona görə ki, Banklararası Valyuta Birjası bizdə formal fəaliyyət göstərir. Nəticə etibarilə bizim əsas ixrac məhsulumuz neftdir və ölkəyə əsas valyuta da neft-qaz sahəsindən daxil olur. Manatın kursuna təhlükə o zaman yaranır ki, neftin qiyməti 45 dollardan aşağı olsun".

■ **Bunu hafta.az-a açıqlamasında sabiq millət vəkili, iqtisadçı Nazim Bəydəmirli deyib. Ekspert vurğulayır ki, Azərbaycan hökuməti bu il ərzində manatın kursunun sabit saxlanılması üçün ciddi xərcə düşməyib:**

"Bu il ölkəyə daxil olan valyuta ölkədən çıxan valyutadan çox olub. Valyuta kursunun inzibati yollarla sabit saxlanılmasını bəyənməsəm də, indiki durumda hökumətə haqq qazandırıram ki, əslində bu məsələ inzibati yolla tənzimlənməsə, dolların kursu bahalaşdığı təqdirdə, 90 faiz əhali ziyana düşər. Bizim əsas istehlak etdiyimiz məhsullar idxal məhsullarıdır və onlar da xarici valyuta ilə alınır. Ona görə hesab edirəm ki, Azərbaycan hökuməti bu mənada dolların kursunu müvəqqəti olaraq, yəni, daxili istehsalla özümüzü təmin edənə qədər inzibati yolla saxlanılmasını normal yanaşıram. Bu prosesi uzum müddət davam etdirmək doğru yanaşma deyil. Hesab edirəm ki, İqtisadiyyat Nazirliyi də başda olmaqla, nazirliklər ciddi şəkildə fəaliyyət göstərməlidirlər. Daxili istehsalı daha da sürətləndirmək, iqtisadi fəallığı artırmaq lazımdır. Bunun üçünsə ilk növbədə rəqabət mühitini təmin etmək lazımdır ki, ixracyönümlü məhsullar istehsal olunsun, qeyri-neft sektoru inkişaf etsin". "Manatın məzənnəsinin sabit saxlanılması, ilk növbədə, Dövlət Neft Fondunun hərracda valyuta satışı ilə bağlıdır. Məlumdur ki, Azərbaycanda əsas valyuta daxilolmaları mənbəyi neft ixracatıdır. Neft ixracatına görə də ölkə iqtisadiyyatının həcminə görə böyük vəsaitlər məhz Neft Fondunda cəmləşir. Neft Fondu da hərrac vasitəsilə faktiki olaraq valyuta bazarına dollar çıxararaq valyutanın sabitliyini təmin edir. Sözsüz ki, burada böyük siyasi iradə var və valyutamız sabit saxlanılır".

> *Manatın kursuna təhlükə o zaman yaranır ki, neftin qiyməti 45 dollardan aşağı olsun...*
>
> *Ölkəyə daxil olan valyutanın həcmi xaric olan valyutanın həcmindən xeyli dərəcədə çoxdur...*

■ **Bu fikirləri hafta.az-a Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Elşad Məmmədov deyib.** Onun sözlərinə görə, bu il valyuta bazarında o qədər də gərginlik hiss olunmur: "Hesablamalarıma görə, ilin sonuna 10 milyard dollardan az Dövlət Neft Fondunun hərraca çıxardığı vəsait olacaq. Və bununla da valyuta bazarındakı sabitlik təmin edilmiş olacaq. Düşünürəm ki, bunun müəyyən problemləri olsa belə valyutamız sabit saxlanılmalıdır. Valyutamızın sabit olmamasından irəli gələ bilən problemlər dəfələrlə daha çox ola bilər. Ona görə də milli valyutamız sabit və gözlənilən məzənnədə saxlanılmalıdır. Bunun üçün Azərbaycanda yaxın və ortamüddətli perespektivdə mövcud imkanlar var. Ölkəyə daxil olan valyutanın həcmi xaric olan valyutanın həcmindən xeyli dərəcədə çoxdur. Xarici ticarətdə müsbət saldo var, pul bazasına nisbətdə Azərbaycanın suveren qızıl valyuta ehtiyatları təqribən 5 dəfə çoxdur. Ona görə də Mərkəzi Bank adekvat makroiqtisadi, o cümlədən pul-kredit siyasəti ilə bağlı siyasət yeridərsə, yaxın və ortamüddətli perespektivdə Azərbaycanın milli valyutasının sabitliyi təmin edilə bilər".

Xatırladaq ki, Azərbaycan Mərkəzi Bankının sədrinin I müavini Alim Quliyev jurnalistlərə açıqlamasında deyib ki, milli valyutanın məzənnəsinin 2022-ci ildə də sabit saxlanılması üçün bütün imkanlar var. "Manatın ucuzlaşması heç vaxt müzakirə mövzusu olmayıb və indi də deyil", - deyə o, əlavə edib.

✍ *Sevinc*



# "Azercell" Azərbaycan bazarında fəaliyyətinin 25 illiyini qeyd edir ®

**5 milyondan çox abunəçinin seçimi olan "Azercell Telekom" MMC fəaliyyətinin 25 illiyini qeyd edir. Azercell-in yaradılması müstəqilliyini yenicə qazanmış Azərbaycanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı və səmərəli islahatların tərkib hissəsi idi.**

Ölkədə telekommunikasiya sənayesinin inkişafına dəstək vermiş Ümummilli lider Heydər Əliyev Azercell-in açılış mərasimində iştirak edib. Qürurvericidir ki, GSM texnologiyasını sınaqdan keçirən və Azercell vasitəsilə edilmiş ilk zəngə cavab verən şəxs Ulu Öndər olub. 25 illik fəaliyyəti ərzində şirkət Azərbaycanın mobil rabitə bazarında lider mövqeyini möhkəmləndirib və abunəçilərinə daima qabaqcıl həllər təqdim edərək keyfiyyətli, innovativ və əlçatan rabitə xidmətləri göstərib. Azercell Azərbaycanda GSM texnologiyası, 24/7 rejimdə çalışan Çağrı Mərkəzi, SimSim (fakturasız) xətt sistemi, M2M xidmətləri, 4G texnologiyası, Azercell Ekspres xidmət mərkəzləri, mobil və onlayn müştəri xidmətlərini təqdim edən, 5G texnologiyasının pilot şəbəkəsini test edən ilk şirkət olub. Azercell Azərbaycanın qeyri-neft sektorunun ən iri vergi ödəyicisidir. Son 25 il ərzində mobil operator dövlət büdcəsinə 2 milyard manatdan çox vəsait köçürüb, ölkədə telekommunikasiyanın inkişafına 1.7 milyard ABŞ dollarından çox investisiya yatırıb, sosial yönümlü layihələrə isə 22 milyon ABŞ dollarından artıq vəsait xərcləyib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən müəyyən edilən 5 Milli Prioritetdən biri rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanıdır. Azercell də bu gün öz şəbəkəsini bütün ölkə ərazisində genişləndirərək yeni rəqəmsal eraya qədəm qoyur. Şirkət müasir rəqəmsal və kiber xidmətlər üzərində çalışır, həmçinin qabaqcıl kommunikasiya həlləri yaradır. Bu yanaşma şirkətin yenilənmiş korporativ strategiyasında da əks olunur. Yeni strategiyaya görə Azercell-in əsas məqsədi həm fərdi, həm də bütün növ iri və kiçik biznes müştərilərinin istək və gözləntilərini qabaqcadan müəyyən edərək onlara cavab verməkdir.

"Hazırda biz çağırışlarla zəngin dövrdə yaşayırıq. Texnologiya durmadan sürətlənir, müştərilərimiz öz növbələrində texnoloji yeniliklərə daha açıqdırlar. Bizim yeni məqsədimiz: "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!". Müştərilərimizin artan dinamika ilə inkişaf edən istəklərini




qarşılamaq və bir addım öndə olaraq onları öncədən müəyyən etmək üçün biz daima öyrənməli, inkişaf etməli və qarşımıza yeni hədəflər qoymalıyıq. Fəaliyyətimizlə cəmiyyətə verə biləcəyimiz faydanı rəhbər tutaraq abunəçilərimizin həyatına daha intensiv şəkildə inteqrasiya olmalıyıq. Hazırkı bazar şərtləri və inkişaf dövründə yalnız bu yolla uğur qazanmaq mümkündür!", - "Azercell Telekom" MMC-nin prezidenti Zərinə Zeynalova şirkətin yeni məqsədini açıqlayaraq qeyd etdi. 25 il əlamətdar tarixdir. Bu önəmli gün Azercell-i gələcək fəaliyyətini yenidən düşünməyə,yüksək texnologiyalar dövrünün tələblərini qarşılamaq və proqnozlaşdırmaq məqsədi daşıyan yeni brend platformasını təqdim etməyə sövq edir. Şirkət brendinin yeni şüarını açıqlayır - "Sənə yaxın gələcək". Yeni kommunikasiya konsepsiyası bir azərbaycanlı ailənin gündəlik həyat hekayələri əsasında hazırlanaraq, müasir rəqəmsal və kommunikasiya həllərinin müştərilərə daha əlçatan və daha yaxın olduğunu göstərir. Məhz innovativ rəqəmsal həllər insanların həyat keyfiyyətini yaxşılaşdırmağa, təhlükəsizliyi artırmağa daha da böyük töhfə verəcək.

25 illik yubileyini və brendin yenilənməsini qeyd edən Azercell bütün bu illər ərzində onu seçən və ona güvənən bütün abunəçilərinə təşəkkür edir! Yubiley ayı ərzində bütün şirkət abunəçiləri xüsusi bonuslardan yararlana biləcəklər. Ətraflı məlumat abunəçilərə dekabrın 15-dən yanvarın 15-dək SMS vasitəsilə göndəriləcək. Bonus olaraq abunəçilər öz seçimlərinə görə pulsuz internet və yaxud danışıq paketləri alacaqlar. Bundan əlavə, dekabrın 25-dən yanvarın 25-dək Azercell abunəçiləri ivi, BluTV, NNTV, SberZvuk, Bookmate və Busuu multimedia xidmətlərindən ödənişsiz istifadə etmək imkanı əldə edəcəklər. Bu tətbiqlər vasitəsilə istifadəçilər öz smartfonlarında sevdikləri filmlərə, TV proqramlara baxa, musiqi dinləyə, kitab oxuya və xarici dil bacarıqlarını inkişaf etdirə bilərlər. Həmçinin yubiley ayı sosial şəbəkələrdə də istifadəçiləri əyləndməyə və qiymətli hədiyyələr əldə etmək şansı qazanmağa dəvət edən müsabiqələrlə zəngin olacaq.

"Azercell" bütün abunəçilərini 25 illik yubileyini qeyd etmək və ən son yeniliklərdən xəbərdar olmaq üçün sosial media hesablarını izləməyə dəvət edir:

Facebook: https://www.facebook.com/azercell
Instagram: https://www.instagram.com/azercell/
LinkedIn: https://www.linkedin.com/company/azercell/
TikTok: https://www.tiktok.com/@azercell_official
Twitter: https://twitter.com/Azercell
YouTube: https://www.youtube.com/AzercellAds

# Nəcib və xeyirxah elm adamı

## Yubiley

***Şərqin tanınmış iqtisadçısı, gözəl insan, dəyərli ziyalı, əsl pedaqoq İrşad Abdul oğlu Kərimov (İrşad Kərimli) elmdə yeni-yeni nailiyyətlər qazanmağın kamillik dövrünü yaşayır. 1947-ci ildə Göyçay rayonunda anadan olan İrşad Kərimov ixtisasca iqtisadçıdır. Tam qətiyyətlə demək olar ki, o, iqtisadiyyat elminin və elmi dərəcə almağın ən yüksək zirvəsinə çatıb. Nəinki Azərbaycanda, eləcədə Şərqdə böyük alim, bilikli, savadlı iqtisadçı kimi tanınan və qəbul edilən İrşad müəllim dünyanın bir sıra beynəlxalq elmi dərnəklərinin iştirakçısı olub, onun elmi fəaliyyəti yüksək qiymətləndirilib və buna görə, orden və medallara layiq görülüb.***



Şərqin tanınmış iqtisadçısı, professor İrşad Kərimovun 74 yaşı tamam olur

### Sınağa çəkilən uğurlu illər

**Sadə və zəhmətkeş ailədə dünyaya gələn, atasını erkən - 1963-cü ildə itirən İrşad müəllimin 14 yaşı hələ tamam olmamışdı. O, Göyçay Kənd Təsərrüfatı Texnikumunda oxuyurdu. Ailənin böyük övladı olduğundan ananın və 4 məktəb yaşlı bacılarının bütü qayğıları və dolanışığı onun üzərinə düşməli oldu.**

Özü tələbə, bacılarının dördü də şagird, ana isə evdar qadın. Nə yaxşı ki, yeniyetmə İrşad Böyük Vətən Müharibəsinin iştirakçısı olan, bədənində döyüş zamanı aldığı güllələrin qalıqlarından əziyyət çəkən atası Abdul kişiyə işlədiyi işdə (atası Kərimov Abdul Kərim oğlu Göyçay avtobazasında işləyirdi) kömək etməklə həmin peşəni bir qədər öyrənə bilir. Atasının qəflətən ölümü ailəni sarsıtsa da, hər halda Kərimovlar nəslinin ağsaqqalları, Göyçayın tanınmış ziyalı şəxsiyyətlərindən əmiləri Ağasəlim və İsmayıl Kərimovlar, əzizləri - Abdüləziz Süleymanov, Sədiyar Zeynalov və başqaları ailəni dolandırmağın yeganə gücünü İrşadda gördülər. İrşad müəllim atasının peşəsini davam etdirməli və ailə bu yolla dolanışıq əldə etməlidir. Belə də oldu. 17 yaşı yenicə tamam olmuş İrşad müəllim 1963-cü ilin dekabr ayından texnikumda oxuya-oxuya növbəti iş qrafiki ilə Göyçay avtobazasında ilk əmək fəaliyyətinə başladı.

### Gələcəyi görünən qayğılı illər

**Texnikumda oxumaq və növbəti iş nə qədər çətin olsa da, hər halda təhsillə istehsalatın əlaqələnməsi güclü həyat məktəbini formalaşdırır.**

Hər bir gənci, nəinki əməyə, zəhmətə alışdırır, həttə onlarda öz əməyini yeniləşdirmək üçün ağılı, kamalı da formalaşdırır. Bu dövr durğunluq kimi görülsə də hər halda həyat sınağına çəkilən bir gənc də sınaqdan çıxmaq üçün yollar tapılmasına da səsləyir. Yollar isə yalnız müntəzəm oxuyub, təhsil alıb, biliklənməklə tapıla bilər. İrşad müəllim bunu hələ uşaq yaşlarında ali təhsili din xadimi babası Kərim Əfəndinin tərbiyəsi altında keçirdiyi vaxtlarda da öyrənə bilirdi.

### Elmə marağın ilk addımları

**Keçən əsrin 50-ci illərinin əvvəllərində orta məktəbin aşağı sinifində oxuyarkən babası Kərim Əfəndi dövrünün tanınmış din xadimlərindən biri, Göyçayın sayılıb seçilən ağsaqqalı hesab olunurdu.**

Kərim Əfəndi 1915-1916-cı illərdə ali dini təhsilini Türkiyədə və İraqda almışdı. Elə buna görə də, "37-ci illərin" amansız və sərt qaydaları Əfəndi babadan da yan ötməmişdi. Ali dini təhsil alması, özü də bu təhsili Türkiyədə alması üzündən o, və ailəsi Sovet-Stalin rejiminin qara günlərini yaşadı. Sürgün olundular. Bəziləri Qazaxıstana, özü isə ailəsi ilə Azərbaycanın ucqar ərazilərinə. Lakin ədalət, həyatın mütərəqqi adamlara bəxş etdiyi həqiqət amalı qələbə çaldı. Kərim Əfəndinin və onun ailəsinin hüquqları bərpa olundu.

Məhz ötən əsrin 50-ci illərinin əvvəlinə təsadüf edilən həmin xoş anlar dövrü məktəbli İrşad müəllimin gələcəyinin ilkin cığırlarını açırdı. İrşad müəllim oğlan nəvələrinin ilkidir. Adını, babası Kərim Əfəndi Qurandan götürüb, böyük oğlan nəvəsinə qoyub. "İrşad" ərəb sözü olub, tərcüməsi "düzgün yol" deməkdir. Uşaq yaşlarını babasının yanında keçirən İrşad ümumbəşəri dinlərin, xüsusən də İslam dininin elmi əsasları haqqında babasının və ona qonaq olanların söhbətlərindən çox şey öyrənə bilmişdi. Çox vaxt əmiləri M.F.Axundov adına Rus dili Ədəbiyyatı İnstitutunun (indiki Slavyan Universitetinin) tələbəsi Ağasəlim Kərimov, tələbə yoldaşları Sədiyar Zeynalov və Mahmud Nəbiyevlə, V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki Tusi adına Pedaqoji Universitetinin) tələbəsi İsmayıl Kərimov, tələbə yoldaşları Şamil Zeynalov və Əfrəsiyab Maqsudovla birgə ataları Kərim Əfəndinin yanında olur, onları maraqlandıran elmi sualların düzgün cavabını alırlar. Əsasən fəlsəfə, astronomiya, tarix bəzən isə ilahiyyətlə əlaqələnən təbiət elmlərindən ciddi sual-cavab aparılır, ətraflı məlumat toplanılır.

Məktəbli İrşad həmin elmi söhbətləri, sual-cavabları eşidir, sirli dünyanın bir çox məqamlarını əhatə edən fikirlərlə yaşayır, uşaq düşüncəsi ilə yeni möcüzələri ağlına gətirir. Yəqin ki, həmin düşüncələr İrşadı oxumağa, təhsilə və biliklərə yiyələnməyə səsləyən ilkin çağırışlar oldu.

### Oxumaq, ali təhsil almaq həvəsi

**Belə arzu və həvəs gənc İrşadı üçüncü bir çətinliklə qarşılaşdırmalı oldu. Texnikumda təhsili başa vurmaq, ana və bacıları dolandırmaqla yanaşı ali məktəbə daxil olmaq lazım gəlir.** Həmin illərin təhsil qaydalarına görə Texnikumu bitirənlər orta ixtisas diplomu ilə yalnız 1-2 il ixtisası üzrə işlədikdən sonra ali məktəbə daxil olmaq üçün sənəd verə bilərdilər. İrşad isə orta məktəbin 8-ci sinfini bitirib (1961-ci ildə) texnikuma daxil olmuşdur. Tam orta təhsil haqqında kamal attestatı almaq zəruriliyini elə bil həyat özü İrşadın yolu üçün açdı. Texnikumun 3-cü kursunda oxuyarkən (8-ci sinifi bitirənlər üçün Göyçay Kənd Təsərrüfatı Texnikumunda təhsil müddəti 4 il idi) rayon Maarif şöbəsinin nümayəndələri 8 illik təhsillə texnikumda oxuyanlara tez-tez bildirirdi ki, tam orta təhsil almaq istəyənlər üçün rayon mərkəzindəki 5 saylı orta məktəbdə axşam fəhlə-gənclər məktəbi fəaliyyət göstərir. Bu xəbər İrşadın ürəyindən oldu. Elə həmin vaxt axşam fəhlə-gənclər məktəbinin 9-cu sinfində orta təhsilini də davam etdirir.

Texnikumu 1966-cı ildə bitirərkən İrşad axşam məktəbində 11-ci sinfinə keçmişdi. İstehsalatda işləyə-işləyə 1967-ci ildə axşam orta məktəbin 11-ci sinifini yalnız əla qiymətlərlə bitirir.Məktəb pedaqoji şurası ona medal vermək barədə Respublika Maarif Nazirliyinə həttə məlumat da göndərmişdi. Lakin Nazirlik bildirmişdi ki, medallar axşam məktəbini bitirənlərə şamil edilmir. Bu və ya digər hallar İrşad müəllimdə süstlük yaratmadı, əksinə təhsilini daha yüksək səviyyələrdə davam etdirməyə ruhlandırdı.

### Tələbəlik illəri

**Ali məktəbdə Göyçay Kənd Təsərrüfatı Texnikumunda keçdiyi iqtisadiyyat yönümlü fənnlər İrşadda iqtisadiyyata, iqtisad elminə xüsusi maraq oyatdı.**

Belə maraq və istək onu Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki İqtisad Universiteti) qəbul olunmağa güclü təsir etdi. İlk kurslardan yalnız əla qiymətlər alır. İnstitutun professor, müəllim və tələbələri arasında xüsusi hörmət qazanır. 2-ci kursda fakultə komsomol təşkilat katibi və İnstitut komsomol təşkilatı bürosunun üzvü olur. (Komsomol katibi olduğu fakultəni bitirən tələbə yoldaşlarından bir çoxu hazırda dövlət və hökumət strukturlarında rəhbər vəzifələrdə çalışır. İrşadın elmi tədqiqata olan qabiliyyətini Azərbaycanda iqtisad elminin formalaşmasında xüsusi əməyi olan, Azərbaycan iqtisad məktəbinin yaradıcılarından biri professor Ələsgər Qasımovun diqqətini cəlb edir. İrşad onun rəhbərlik etdiyi "siyasi iqtisad" üzrə ümumrespublika elmi dərnəyinin üzvü olur. Dərnəkdə elmi məruzələrlə çıxış edir. Tələbə ikən İrşad elmi məruzələrlə Azərbaycanın hüdudlarından kənarda 1970-ci ildə Riqada, az sonra isə Moskvada tələbə cəmiyyətinin xətti ilə keçirilən konfranslarda çıxış edir.

### Elm yolu ilə addımlar

**Təhsil aldığı institutun elmi, ictimai-siyasi həyatında fəal iştirak etdiyinə və institutu fərqlənmə ilə bitirdiyinə görə gənc mütəxəssis kimi 1971-ci ildə institutda saxlanılır.**

Bir il kafedrada əvvəlcə laborant, sonra isə baş laborant vəzifəsində işlədikdən sonra istehsalatdan ayrılmaqla aspiranturaya daxil olur. Bir il ordu sıralarında xidmət edir. Aspiranturanı müvəffəqiyyətlə bitirən İrşad təyinat gözləyir. Nəhayət, gənc mütəxəssis kimi Azərbaycan Xarici Dillər İnstitutunun Siyasi İqtisad kafedrasına baş müəlim vəzifəsinə təyin edilir. Uğurluğur arxasına gəlir.

Əvvəlcə namizədlik dissertasiyasını 1979-cu ildə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunun İxtisaslaşmış Elmi Şurasında müvəffəqiyyətlə müdafiə edir. Bir az sonra qismətinə çıxan Xarici Dillər İnstitutunda işləyən göyçaylı qızla ailə həyatı qurur. İrşadın fikrincə mıhkəm ailə həyatı qurmağın özü böyük həyat elmidir. Onun sirlərini öyrənib açmağın özü ciddi həyat məktəbi tələb edir.

İrşad müəllim həyatda hər bir hadisə və prosesin elmini axtarır. İqtisad elmində axtarışlarını isə davam etdirir. Yeni-yeni problemlərlə qarşılaşır. Doktorluq dissertasiyası üzərində işləyir. Problem mürəkkəb və çoxcəhətli olduğundan, eyni zamanda problemlə məşğul olan iqtisadçı alimlərin və doktorluq dissertasiyası üzrə müdafiə şurasının olmaması üzündən Ukraynaya göndərilir. Kiyev Universitetində doktoranturada oxuyur, tədqiqat işini davam etdirir, dissertasiyasını tamamlayır.

### Elmi nəticələri

**Uzun illər üzərində işlədiyi doktorluq dissertasiyanı uğurla müdafiə etmək üçün Polşada, Almaniyada olur, həmin ölkələrin təsrübəsindən istifadə edir.**

Dissertasiya tədqiqatına Ukrayna Milli Elmlər Akademiyasının akademikləri - Anatoli Andreyeviç Poxomov Elmi məsləhətçilər olmuşlar. Nəhayət, 1994-cü ilin dekabr ayında Kiyev Universitetinin doktorluq dissertaiyasının müdafiəsi üzrə ixtisaslaşmış Elmi Şurasında iqtisad elmləri doktoru alimlik dərəcəsi alır. Bir neçə il sonra professor vəzifəsinə seçilir.1996-2020-ci illəri əhatə edən 25 il ərzində "Dünya iqtisadiyyatı" ixtisasını formalaşdıran və bu ixtisasın şifrəsinə birbaşa daxil olan 2 dərslik, 3 dərs vəsaiti, 1 monoqrafiya, 5 metodik göstəriş və 15 tədris paoqramlarını nəşr etdirmişdir. "Azərbaycan regional iqtisadi inteqrasiya prosesinə" həsr olunmuş 7 müxtəlif maraqlı məruzəsi beynəlxalq konfranslarda maraqla dinlənilmişdir.

İrşad müəllim 2015-ci ilin oktyabrından İqtisad Univeritetində yaradılmış "Beynəlxalq iqtisadiyyat" kafedrasına rəhbərlik edir. Ailəlidir, iki övladı var. İqtisad Universitetində təhsilin səviyyəsinin qaldırılması, dünya standartlarına və dünya elminə uğurla inteqrasiya olunması, həmçinin universitetdə təhsil alan gənclərin yüksək ixtisaslı mütəxəssis kimi yetişməələri ilə yanaşı, onlarda Vətən, millət, dövlət sevgisi aşılayan bir müəllim, ziyalı və insan kimi ilk öncə Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir, bir müddət sonra isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Respublikanın "Əməkdar müəllim"i adına layiq görülmüşdür.

Son olaraq bizdə İrşad müəllimə can sağlığı, elmi fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

✍ *İ.ƏLİYEV*

## HƏFTƏ REYTİNQ

### Həftənin GÖRÜŞÜ



Prezident İlham Əliyev "Qarabağ" klubunu qəbul edib. Ölkə başçısının klub üzvləri ilə səmimi görüşü və söhbəti sosial şəbəkələrdə müsbət qarşılanıb. Dövlət başçısı komandanın braziliyalı legioneri Riçard Almeydanın 2014-cü ildə "İnter"ə vurduğu qolu xatırlayıb: "O qolu sən vurmuşdun deyəsən "İnter"ə, saymadılar". Daha sonra İlham Əliyev Kadi Borxeslə də söhbətləşib: "Sən də qol vurmusan, saymayıblar". Prezident komandanın qapıçısı Şahruddin Məhəmmədəliyevi oyununu müsbət dəyərləndirib: "Sən yaxşı qapıçısan, cəsarətlisən".

### Həftənin MƏŞQÇİSİ



İdman Araşdırmaları Mərkəzinin "İlin qalibləri-2021" layihəsi üzrə mükafatçıları müəyyənləşib. Qaliblər Bakı Olimpiya Stadionunda açıqlanıb. Nominasiyalar üzrə: İlin İdman Xadimi - İlqar Rəhimov (Milli Paralimpiya Komitəsinin prezidenti), İlin əcnəbi futbolçusu - Abdullah Zubir ("Qarabağ", Fransa), İlin futbolçusu - Emin Mahmudov ("Neftçi"), İlin İdmançısı - İrina Zaretska, İlin Komandası - "Qarabağ" futbol komandası, İlin məşqçisi - Qurban Qurbanov ("Qarabağ" futbol komandasının baş məşqçisi), İlin İdman Yarışı - Avro-2020-nin Bakıda keçirilmiş 4 oyunu.

### Həftənin GÖZƏLİ



İsrailin Eylat şəhərində "Kainat gözəli-2021" müsabiqəsinin finalı keçirilib. Yarışmanın qalibi Hindistan təmsilçisi Harnaaz Sandhu seçilib. 21 yaşlı qız gözəllik müsabiqəsinin keçirildiyi vaxtdan indiyək qalib seçilən üçüncü Hindistan vətəndaşı olub. Sandhu administrator kimi çalışır, boş vaxtlarında model və aktrisa kimi fəaliyyət göstərir. Bundan əlavə, qız ictimai fəaliyyətlə məşğuldur. İkinci yerə Cənubi Afrika Respublikasının (CAR) təmsilçisi Lalesa Msvane, üçüncü yerə isə Paraqvay təmsilçisi Nadia Fereyra layiq görülüb.

### Həftənin SEÇİLMİŞİ



"SpaceX" və "Tesla"nın qurucusu İlon Mask "Time" jurnalı tərəfindən "2021-ci ilin adamı" seçilib. "İlin adamı 2021"in elan edilməsinin rəsmi mərasimi nəşrin Yutub kanalında yayımlanıb. Bu nominasiyada ötən həftə jurnalın oxucuları seçim ediblər. Reytinqdə ikinci yeri ABŞ-ın keçmiş Prezidenti Donald Tramp, üçüncü yeri isə koronavirus infeksiyası ilə mübarizə aparan həkimlər tutub. Qeyd edək ki, keçən il ABŞ Prezidenti Co Bayden və vitse-prezident Kamala Harris "Time" jurnalında "İlin adamı" seçilmişdi.

### Həftənin MODELİ



Türkiyənin İstanbul şəhərində "Best Model of The World-2021" müsabiqəsinin finalı keçirilib. Azərbaycanı müsabiqədə təmsil edən model Aydan Yeşildağ birinci yerə layiq görülüb və bununla da dünyanın ən yaxşı modeli seçilib, bəy təmsilçimiz - model Xəqani Hüseynov isə "Best Asia" tituluna sahib olub. Qeyd edək ki, "Best Model of The World" hər il İstanbulda keçirilir. Layihənin prezidenti Erkan Özermandır.

### Həftənin XƏBƏRDARLIĞI



Rusiya Avropada ortamənzilli nüvə raketləri yerləşdirmək məcburiyyətində ola biləcəyini açıqlayıb. Bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov açıqlama verib. O bildirib ki, NATO-nun da eyni planı var. Ryabkov qeyd edib ki, NATO-dan gözlədikləri təhlükəsizlik zəmanətini ala bilməsələr, Qərblə aralarındakı böhran daha da böyüyəcək: "Problemin siyasi və diplomatik həllini tapmamaq cavabımızın hərbi və texniki xarakter daşımasına səbəb olacaq".

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU




Vətəndaşlara ağac tingləri hədiyyə edildi...

## Türkiyə - Ermənistan dialoqu

**Əli Mustafa,**
politoloq

Belə bir dialoq mühitinin yaradılması həm də Rusiyanın regiona müdaxiləsini azalda bilər...

Səh. 3

## STATİSTİKA



■ Monakoda hər kvabratkilometrdə 18600 insan yaşayır. Bu dünyada əhali sıxlığına görə birinci göstəricidir. Sinqapurda isə bu statistika 7300 nəfər təşkil edir.

■ Nauru Avropadan kənarda yerləşən dünyanın ən kiçik dövləti sayılır. Onun ərazisi Moskvadan 42 dəfə balacadır - 21,2 kvadrat kilometr.

■ Dünyada göllərin sayına görə ilk yeri Kanada tutur - 3 milyon. İkinci yerdə isə 2 milyon göstərici ilə Rusiya dayanır.



Səh. 4

## Şuşaya, Ağdama gedişhaqqı neçə manat olacaq?